Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 05 may 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 05 MAY 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, “Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

## RƏSMİ MƏLUMAT


Ərəb-İslam-Amerika Sammiti ........................................................................5
Azərbaycan Prezidenti İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib ..................................8
Ümummilli Liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim ..........................................................................9
Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyası ..........................................................................10
9 May - Qələbə Günü münasibətilə mərasim ......................................11
“Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları..............................................12
“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................14
28 May - Respublika Günü münasibətilə rəsmi qəbul ..........................16






## ƏDLİYYƏ NAZİRLİYİNDƏ


Ulu öndər Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında geniş qeyd olunub ..........................................................................18
Ədliyyə naziri Tovuz rayonunda vətəndaşları qəbul edib......................20




## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ


Ədliyyə Nazirliyində görüşlər ..............................................................21
Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Penitensiar xidmət rəhbərləri Şurasının ikinci toplantısı ....................................................25
Hakimliyə namizədlər Türkiyədə təlim keçiblər ....................................26




## MƏLUMATLAR, ELANLAR...


İnsan Hüquqları Aylığı çərçivəsində tədbirlər ........................................27
Ədliyyə Akademiyası hakimlər, vəkillər və digər hüquqşünaslar üçün təlimlər keçirib ..........................................................................28
Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində tələbələrlə görüş ..........................................................................30
Ədliyyə naziri yanında İctimai Komitənin iki illik səlahiyyət müddəti başa çatır.........................................................................30
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ..........................................................................31
Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edilir ..........................................................................31
Ədliyyə Nazirliyi İKT üzrə mütəxəssisləri qulluğa qəbulla bağlı açıq müsabiqəyə dəvət edir ..........................................................32






## HÜQUQ NƏZƏRİYYƏSİ


Mirtale Muxtarov, Ədliyyə orqanlarında vətəndaş müraciətləri daim diqqət mərkəzindədir ......................................33
Качалова О. В. Правовое регулирование досудебного соглашения о сотрудничестве в уголовно-процессуальном законодательстве России ......................................36




## YENİ QANUNLAR, FƏRMANLAR...

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu......... 40
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ..................................... 48
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ........................ 49
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ..................................... 50
“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ...................................................... 52
“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu.... 53
“Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ......................................................................... 54
“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ......................................................................... 55
“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu........ 55
“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu........ 56
“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu........ 56

# Ərəb-İslam-Amerika Sammiti

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib





**Mayın 21-də Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Ərəb-İslam-Amerika Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.**

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Sammitin keçirildiyi Kral Əbdüləziz Beynəlxalq Konfrans Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Sonra Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun adından Sammit iştirakçılarının şərəfinə nahar verilib. Dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

Sammit "Birlikdə güclüyük" devizi altında keçirilib. İlk dəfədir təşkil edilən bu tədbirdə iştirakçı ölkələrin qlobal təhlükəsizliyin, sabitliyin təmin edilməsində, zorakılıq, terrorizm və ekstremizm ilə mübarizədə rolu və bu sahədə mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi barədə müzakirələr aparılıb. Sammit iştirakçı ölkələr arasında işgüzar, mədəni və siyasi əlaqələrin tolerantlıq və əməkdaşlığa müştərək inam vasitəsilə daha da gücləndirilməsinə xidmət edir. Tədbirin məqsədlərindən biri də ölkələr arasındakı münasibətlərdə yeni başlanğıcın və hamı üçün daha parlaq gələcəyin təməlinin qoyulmasıdır.

"Qurani-Kərim"dən ayənin oxunması ilə başlayan Sammitdə Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud dövlət və hökumət başçılarını salamlayaraq İslam ölkələri arasında əlaqələrin inkişafında mühüm rol oynayacaq bu Zirvə



*Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun adından Sammit iştirakçılarının şərəfinə nahar*

görüşünün əhəmiyyətinə toxunub. Sammitin dünyada terrorizm və ekstremizm hallarının qarşısının alınmasına, dayanıqlı sülhün təmin edilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib, bu görüşü Amerika-İslam dünyası əlaqələrində də mühüm mərhələ kimi xarakterizə edib.

"İslam sülh və tolerantlıq dinidir", - deyən Səudiyyə Ərəbistanının Kralı İslamın hər zaman terrorizm və ekstremizm hallarına qarşı çıxdığını və ölkəsinin bu cür təhlükəli amillərlə mübarizədə həmişə əməkdaşlığa hazır olduğunu bildirib.

Sammitdə iştirak edən ABŞ Prezidenti Donald Tramp ilk növbədə ekstremizmlə mübarizənin vacibliyini vurğulayıb. O, bu sahədə mübarizənin müxtəlif dinlər arasında deyil, xeyirlə şər arasında getdiyini, şərə qalib gəlmək üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd edib. Terrorizm yolunu seçənlərin həyatının boş və qısa olacağını deyən ABŞ Prezidenti bildirib ki, hər dəfə bir terrorçu günahsız insanı qətlə yetirərkən Allahın adını çə-




*Xatirə şəkli*



*Abu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə görüş*

kəndə inanclı insanları təhqir etmiş olur. Donald Tramp ABŞ-ın müharibənin deyil, sülhün tərəfdarı olduğunu bildirərək ekstremizmin və terrorizmin bütün təzahürləri ilə mübarizədə hələ çox iş görülməli olduğunu, İŞİD terror qruplaşmasının maliyyələşməsinə son qoymağın vacibliyini diqqətə çatdırıb.

Donald Tramp vurğulayıb ki, günahsız müsəlmanların qətlə yetirilməsinin, qadınların sıxışdırılmasının, yəhudilərin təqibinin və xristianların öldürülməsinin qarşısını almaq üçün səylər birləşdirilməlidir. Terrorizmə qarşı heç bir tədbir görülməsə qətllər, əzab və ümidsizlik daha da artacaq. Milyardlarla insanın dünya liderlərindən tədbir görmələrini gözlədiyini deyən ABŞ Prezidenti bildirib ki, terrorizmin kökünü yalnız birgə səylərlə və qətiyyətli addımlarla kəsmək mümkündür.

Sammitdə çıxış edən İslam ölkələrinin liderləri artıq qlobal xarakter alan terror hücumlarına qarşı birgə mübarizənin vacibliyini vurğulayaraq, bu sahədə bütün ölkələrin əməkdaşlığının strateji əhəmiyyət daşıdığını bildiriblər. İslam aləmindəki münaqişə ocaqlarının dünyada təhlükəsizliyi təhdid etdiyini deyən dövlət başçıları sülhün bərqərar olması istiqamətində tədbirlərin görülməsinin vacibliyinə diqqət çəkib, dinlərarası münaqişəyə son qoyulmasının önəmini vurğulayıblar. Bu sahədə bütün müttəfiqlərlə səmərəli əməkdaşlığın tərəfdarı olduqlarını bildirərək cəmiyyətlərdə maariflənmə işlərinin aparılmasının əhəmiyyətinə toxunublar. Vəziyyətdən çıxış yolu kimi ölkələr və xalqlar arasında əlaqələrin möhkəmlənməsinin tərəfdarı olduqlarını bəyan ediblər.

Səfər zamanı Prezident İlham Əliyev Abu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə görüşüb.

Görüşdə ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğu və dinamik şəkildə inkişaf etdiyi bildirilib. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin və ölkələrimiz arasında hava uçuşlarının sayının artması məmnunluqla qeyd edilib, ticarət əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanıb.

Söhbət zamanı həmçinin sərmayə qoyuluşu, enerji sahəsi, Azərbaycanda yaradılan azad ticarət zonasında Birləşmiş Ərəb Əmirliklərinin iştirakı, neft-kimya, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə sahələrində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edilərək bu məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Elə həmin gün dövlətimizin başçısı İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfəri başa çatıb.

# Azərbaycan Prezidenti İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib





**Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Azərbaycanın hər yerində, dünya ölkələrində geniş qeyd olunub, bu münasibətlə silsilə tədbirlər keçirilib, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri bir daha minnətdarlıqla xatırlanıb. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ ediblər.**

Xalqımızın xilaskar oğlunun hər doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana gələrək Ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib, ruhuna dualar oxuyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə Fəxri xiyabanda məzarını ziyarət ediblər.



Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

# Ümummilli Liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim

**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasim keçirilib.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə Azərbaycan xalqının Ulu Öndərin əziz xatirəsinə bir daha dərin ehtiramını ifadə etdiyini söyləyib. Ulu Öndərin bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət etdiyini qeyd edən dövlətimizin başçısı Ümummilli Liderimizin Azərbaycana iki dəfə rəhbərlik etdiyini və hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna apardığını, həmişə düzgün siyasət yürütdüyünü və Azərbaycan xalqının maraqlarını müdafiə etdiyini vurğulayıb.

Ulu Öndərin Sovet İttifaqı dövründəki fəaliyyəti barədə danışan Prezident İlham Əliyev o dövrdə Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə sürətli inkişafın getdiyini bildirib. Respublikanın çox uğurlu yol keçdiyini görən sovet rəhbərliyi Ümummilli Lideri Moskvaya - yüksək vəzifəyə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edib. 1987-ci ildə sovet rəhbərliyində ən fəal şəxslərdən biri olan Heydər Əliyev tamamilə əsassız ittihamlarla bütün vəzifələrdən kənarlaşdırılıb. Çünki belə bir müstəqil şəxsiyyətin, özü də sovet məkanında böyük nüfuza malik olan şəxsiyyətin mövcudluğu o vaxt öz imkanlarına inanmayan, təsadüf nəticəsində hakimiyyətin zirvəsinə qalxan şəxsin xoşuna gələ bilməzdi.

O vaxtdan ölkəmizin problemlərinin başladığını, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsasının qoyulduğunu deyən Prezident İlham Əliyev ovaxtkı sovet rəhbərliyinin separatçıların fəaliyyətinə heç bir reaksiya vermədiyini və bu meyillərin Sovet İttifaqının dağılmasına gətirib çıxardığını söyləyib.

Ulu Öndərin Azərbaycana qayıtdığını, burada da ədalətsizliklə qarşılaşdığını və Ümummilli Liderin Naxçıvana üz tutduğunu xatırladan ölkə Prezidenti həmin vaxt Naxçıvanda önəmli qərarların qəbul edildiyini, müstəqilliyə aparan ilk addımların atıldığını qeyd edib. Dövlət başçısı müstəqilliyə gedən yolda qarşılaşdığımız çətinliklərdən danışarkən bu ağır məqamlarda xalqımızın Ulu Öndərə müraciət etdiyini, onun hakimiyyətə qayıdışı ilə ölkədə sabitliyin təmin olunduğunu, dövlətçiliyin, azərbaycançılıq ideologiyasının, həmçinin iqtisadi inkişafın əsaslarının qoyulduğunu vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, 1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır.

Ulu Öndərin 1993-cü ildə Azərbaycanda dərin islahatlara start verdiyini qeyd edən dövlətimizin başçısı bildirib ki, bu gün ölkəmizdə bütün azadlıqlar var, siyasi islahatlar davam etdirilir və ölkəmiz demokratik yola dəfələrlə sadiqliyini təsdiqləyib.

Heydər Əliyevin xarici siyasətindən danışan Prezident İlham Əliyev Ulu Öndərin səyləri nəticə-

sində Azərbaycanın beynəlxalq təcriddən çıxdığını, Azərbaycanın reallıqlarının dünyaya çatdırıldığını və bu gün ölkəmizin dünya miqyasında çox böyük hörmətə malik olan dövlət olduğunu vurğulayıb.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda da biz Heydər Əliyev kimi prinsipial mövqeyimizi müdafiə edirik və bu mövqe gündən-günə güclənir" - deyən dövlətimizin başçısı aparıcı beynəlxalq təşkilatların münaqişə ilə bağlı mövqeyimizi əks etdirən ədalətli qərar və qətnamələr qəbul etdiyini, ərazi bütövlüyümüzü dəstəklədiyini vurğulayıb. Ordu quruculuğunun Heydər Əliyev üçün prioritet məsələ olduğunu və bu prosesin Ulu Öndərin adı ilə bağlı olduğunu söyləyən dövlət başçısı bu gün Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasında olduğunu diqqətə çatdıraraq bildirib ki, bunu keçən ilin aprel ayında baş vermiş toqquşma da göstərdi.

Azərbaycan Prezidenti çıxışında, həmçinin qeyd edib ki, Heydər Əliyev dərin iqtisadi islahatların başlanmasına təkan verdi. Bu gün Azərbaycan iqtisadiyyatı bütün parametrlərə görə bütün ölkələr üçün nümunə ola bilər. Sosial siyasətə də bunu aid etmək mümkündür. Heydər Əliyevin uğurlu neft strategiyası bu gün də davam etdirilir. Bakı şəhərinin bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biri olduğunu söyləyən Prezident İlham Əliyev paytaxtın müasir rəmzlərinin yaradıldığını, onlardan birinin Ulu Öndərin adını daşıyan Heydər Əliyev Mərkəzinin olduğunu qeyd edib.

Mərasimdə Ulu öndər Heydər Əliyevin fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib. Sonra Heydər Əliyev Mükafatının təqdimetmə mərasimi olub. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafındakı xüsusi xidmətlərinə görə Xalq Şairi Nəriman Həsənzadəni Heydər Əliyev Mükafatı ilə təltif edib.

Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş "Qızıl çinar" beynəlxalq mükafatının 2017-ci il üzrə qalibi elan olunub. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fondun yeni nəslin kamil insan kimi formalaşmasında əhəmiyyət kəsb edən layihələrinə verdiyi dəstəyə, kütləvi informasiya vasitələrində bəşəri dəyərlərin təbliğində fəal iştirakına görə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar Elm Xadimi, "Şöhrət" ordenli şərqşünas alim Vasim Məmmədəliyevə "Qızıl çinar" beynəlxalq mükafatını təqdim edib.

Sonda təntənəli mərasim bədii hissə ilə davam edib.

# Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə aksiyası

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.**





Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış olub, sonra ərazidə ağac əkiblər.

Həmin gün 9 minə yaxın aqrar əhəmiyyətli və digər növ ağaclar əkilib. Dövlətimizin başçısı və birinci xanım ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərinə uyğun olaraq ətraf mühitin mühafizəsi və insanların sağlam təbii mühitdə yaşaması üçün əməli tədbirlər

görülüb, ölkədə milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

# 9 May - Qələbə Günü münasibətilə mərasim



**Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlət başçısı və xanımı İkinci Dünya müharibəsinin veteranları ilə görüşüb, onları Böyük Qələbə münasibətilə təbrik ediblər.

Müharibə veteranları onlara göstərilən yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirib, gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini söyləyiblər.

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir.

Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Dövlətimizin başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə də görüşüb, Qələbə günü münasibətilə onları təbrik ediblər.

Həmçinin iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoyulub, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsi ehtiramla yad edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdiriblər.

Mərasimdə Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# "BAKI-2017" IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI

## *Xalqımızın möhtəşəm qələbəsinin, dövlətimizin növbəti uğurunun, idmançılarımızın zəfərlərinin təntənəsi*




Açılış mərasimi



**2017-ci ilin may ayının 12-dən 22-dək bütün dünyanın diqqətinin yönəldiyi Azərbaycan və onun paytaxtı Bakı şəhəri növbəti dəfə beynəlxalq əhəmiyyətli idman yarışına - IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə, möhtəşəm və heyrətamiz şəkildə uğurla ev sahibliyi etdi, xalqımız, milyonlarla insan, idman azarkeşləri "Bakı-2017"-in atəşfəşanlıqla keçirilmiş açılış və bağlanış mərasimlərinin, 3 mindən çox idmançının gərgin mübarizələrlə və zəfərlərlə dolu yarışlarının həyacan və sevincini yaşadı.**

IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi barədə qərar 2013-cü ilin iyulunda İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında qəbul edilmişdi. Bu qərar qəbul olunarkən Azərbaycanın müsəlman dünyasında yeri və mövqeyi, beynəlxalq tədbirlər keçirmək sarıdan potensialı, təcrübəsi, həmçinin ölkəmizdəki sabitlik nəzərə alınmışdı. 2015-ci il sentyabrın 18-də isə Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzaladı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi tərəfindən Oyunlarla bağlı geniş hazırlıq işləri görüldü. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlandı və digər zəruri təşkilati tədbirlər həyata keçirildi.

Böyük həyəcan və qürur doğuran IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış və bağlanış mərasimləri bir sıra maraqlı məqamlar və sürprizlərlə yadda qaldı. Bakı Olimpiya Stadionunda təşkil olunmuş mərasimlərdə Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri və digər rəsmi şəxslər iştirak etdilər.

Dörd əsas dəyər - "Birlik", "Sülh", "Hörmət", "Mükəmməllik" dəyərləri üzərində qurulan Oyunlar "Gücümüz həmrəylikdədir" devizi altında keçirildi.

Açılış mərasimində Bakı Olimpiya Stadionuna toplaşmış 60 mindən artıq izləyici, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldu. Mərasimdə xalqımızın milli-mənəvi dəyərlərini özündə əks etdirən rəngarəng kompozisiyalar, səhnələr hər kəsdə böyük heyranlıq doğurdu. Komandaların paradı da idman azarkeşlərinin böyük coşqusu ilə qarşılandı.

10 gün davam edən "Bakı-2017"in bütün idman






Azərbaycan idmançılarının uğurları




yarışları maraqlı mübarizələrlə, həyəcanlı anlarla və zəfərlərlə yadda qaldı, İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi. Bir-birindən müasirliyi ilə fərqlənən idman arenalarında idmanın 24 növü üzrə 269 dəst medal uğrunda maraqlı mübarizələr yaşandı.

Xalqımız üçün olduqca fərəhlidir ki, yarışlarda Azərbaycan idmançıları öz parlaq qələbələri ilə iştirakçı-dövlətlərin atletləri sırasında ən yüksək pilləyə qalxdı, hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldular. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.


BAKU 2017 4th Islamic Solidarity Games 12 – 22 May 2017

Xəbərlər Video Şəkil Bakı Mərasimlər İdman Cədvəl və

Medallar

Bazar ertəsi, 22 may 15:04 AZST

| Reytinq | Ölkə | | | | |
|---|---|---|---|---|---|
| 1 | Azərbaycan | 75 | 50 | 37 | 162 |
| 2 | Türkiyə | 71 | 67 | 57 | 195 |
| 3 | İran | 39 | 26 | 33 | 98 |
| 4 | Özbəkistan | 15 | 17 | 31 | 63 |
| 5 | Bəhreyn | 12 | 5 | 4 | 21 |
| 6 | Əlcəzair | 7 | 12 | 21 | 40 |
| 7 | Mərakeş | 7 | 5 | 15 | 27 |
| 8 | İndoneziya | 6 | 29 | 23 | 58 |
| 9 | Misir | 6 | 5 | 7 | 18 |
| 10 | Qırğızıstan | 4 | 5 | 8 | 17 |

Dövlət başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri idmançılarımıza göstərilən ən böyük mənəvi dəstək oldu, Oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirdi.

Yaddaşlarda dərin iz qoyan və tarixə çevrilən IV İslam Həmrəyliyi Oyunları mayın 22-də təntənəli bağlanış mərasimi ilə möhtəşəm atəşfəşanlıqla başa çatdı.

Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına yüksək təhlükəsizlik şəraitində, uğurla ev sahibliyi etməklə ölkəmizin Yer üzünə sülh və əmin-amanlıq gətirmək, daha sabit, gərginliklərdən, qanlı qarşıdurmalardan azad bir dünya qurmaq arzusunu və bəşəriyyətin tərəqqipərvər qüvvələri ilə birgə bu niyyəti gerçəkləşdirmək əzmini göstərdi, həm də bu dəyəri layiq olduğu ucalıqlara yüksəltdi.





Bağlanış mərasimi

**Azərbaycan Xalq Cümhuriyyətinin**
**100 illik yubileyi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
# SƏRƏNCAMI



2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni

imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 may 2017-ci il*

# 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul

**Mayın 26-da "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Tədbirdən əvvəl dövlətimizin başçısı Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib, abidənin önünə əklil qoyub.

Rəsmi qəbulda dövlətimizin başçısı nitq söyləyərək Azərbaycan xalqını Respublika Günü münasibətilə ürəkdən təbrik edib, doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublikanın yaradılmasını xalqımız üçün və dünya miqyasında tarixi hadisə adlandırıb. Azərbaycan dövlətinin və xalqının Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşdığını, bu yaxınlarda Cümhuriyyətin 100 illik yubileyi ilə bağlı Sərəncam imzalandığını deyən dövlətimizin başçısı cəmi iki il yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin böyük uğurlara nail olduğunu bildirib.

Xalq Cümhuriyyətinin süqutundan sonra 70 il Sovet İttifaqının tərkibində yaşayan Azərbaycanın 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etdiyini bildirən Prezident İlham Əliyev həmin dövrdə də müstəqilliyimiz üçün böyük təhlükələrin yarandığını, 1993-cü ildə xalqımızın müdriklik göstərərək ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdikdən sonra ölkədə bütün xoşagəlməz hallara son qoyulduğunu və inkişaf dövrünün başlandığını diqqətə çatdırıb.

İndi Azərbaycanın bir çox dövlətlər üçün nümunə olduğunu söyləyən ölkə başçısı qarşıda duran vəzifələrdən danışıb, gələcək illərdə də müsbət dinamikanın saxlanmasının vacibliyini bildirib. Azərbaycanın mümkün xarici risklərdən qorunduğunu, sərfəli olmayan heç bir təşəbbüsə qoşulmayacağını vurğulayıb. Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır.

Prezident İlham Əliyev ölkədə bütün azadlıqların təmin edildiyini, demokratik inkişaf istiqamətində bir çox nailiyyətlərin olduğunu qeyd edib, böyük sərvətimiz olan millətlərarası və dinlərarası münasibətlərin qorunduğunu və Azərbaycanın dünyada multikulturalizmin mərkəzinə çevrildiyini vurğulayıb. Bildirib ki, öz köklərinə bağlı olan xalq və dövlət həmişə düzgün siyasət aparacaq. Milli dəyərləri möhkəm olan xalq həmişə uğur qazanacaq, inkişaf edəcək.

Azərbaycanda sabitliyin qorunub saxlanmasının vacibliyini diqqətə çatdıran dövlətimizin başçısı bunun hər bir ölkənin inkişafı üçün əsas amil olduğunu bildirib. Ölkədə sosial sahəyə bundan sonra da xüsusi diqqət ayrılacağını qeyd edən Prezident İlham Əliyev çıxışında həmçinin xarici siyasət sahəsində əldə olunan uğurlara toxunub. Vurğulayıb ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. İkitərəfli, üçtərəfli formatda əlaqələrimiz inkişaf edir, beynəlxalq təşkilatlarla çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq.

Azərbaycanın da bu yaxınlarda Səudiyyə Ərəbistanında keçirilmiş Ərəb-İslam-Amerika Zirvə görüşündə yüksək səviyyədə iştirak etdiyini, ABŞ Prezidenti cənab Trampın öz ilk xarici rəsmi səfərini müsəlman ölkəsinə etməsinin İslam dünyasına göstərilən böyük hörmətin təzahürü olduğunu bildirən Prezident İlham Əliyev xarici siyasətimizin əsas istiqaməti olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb. Bu istiqamətdə bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində,





Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Dövlət başçısı həmçinin münaqişə nəticəsində məcburi köçkünə çevrilən insanların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı genişmiqyaslı tədbirlərin görüldüyünü, ordu quruculuğu istiqamətində siyasətin özünü tam doğrultduğunu qeyd edib.

Ölkə Prezidenti güclü iqtisadiyyata malik olmaq yönündə atılan addımlardan danışıb, bir çox sahələrdə ciddi artımın olduğunu bildirib, qarşıda duran vacib məsələlərdən biri olan "Cənub Qaz Dəhlizi" layihəsinin uğurla icra edildiyini vurğulayıb. Böyük nəqliyyat layihələrini icra edən Azərbaycan Bakı-Tbilisi-Qars və Şimal-Cənub nəqliyyat dəhlizi ilə yanaşı, Ələt Beynəlxalq Dəniz Limanının tikintisinə də böyük əhəmiyyət verir.

Əldə olunan uğurların təməlində düşünülmüş siyasətin və xalqımızın müstəqillik şəraitində yaşamasının dayandığını diqqətə çatdıran Prezident İlham Əliyev əminliklə vurğulayıb ki, biz müstəqilliyi qoruyuruq və qoruyacağıq. Çünki müstəqillik bizim üçün ən böyük sərvət, ən böyük nemətdir.

Sonda Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olunub.

***

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Doxsan doqquz il əvvəl mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən - "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Cümhuriyyətin yarandığı bu şərəfli tarixi 28 May Respublika Günü kimi qeyd edir.

Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini qeyd edəcək. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcək.

# Ulu öndər Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında geniş qeyd olunub



**Dövlət müstəqilliyimizin qorunub saxlanılması, ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, bütün sahələrdə tərəqqiyə nail olunması, o cümlədən müasir hüquq sistemimizin formalaşması, inkişafı və Ədliyyə Nazirliyinin təşəkkülü bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**

Ulu Öndərin anadan olmasının 94-cü ildönümü münasibətilə nazirlikdə silsilə tədbirlər təşkil edilib, o cümlədən bir qrup gənc ədliyyə orqanlarına qulluğa qəbul olunub, Heydər Əliyev muzeyində gənc əməkdaşlarla görüş keçirilib, ədliyyə işçiləri könüllü qanvermə aksiyasına qoşularaq fəallıq nümayiş etdiriblər. Həmçinin, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, nazirliyin kinozalında Ümummilli Liderə həsr olunmuş filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib.

Ədliyyə işçiləri mayın 10-da Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əbədi ehtiramlarını bildiriblər. Sonra Ədliyyə Nazirliyində Ümummilli Liderin doğum gününə həsr olunmuş mərasim keçirilib. Əvvəlcə əbədiyaşar liderin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub, əziz və işıqlı xatirəsi yad edilib.



Mərasimdə dahi Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında əvəzsiz xidmətlərindən bəhs olunub. Tədbirdə iştirak edən Ümummilli Lider irsinin tədqiqatçısı, "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyinin müəllifi, yazıçı-publisist, Milli Məclisin deputatı Elmira Axundova Ulu Öndərlə bağlı xoş xatirələrini bölüşüb, zəngin dövlətçilik irsindən söhbət açıb. Bildirib ki, Heydər Əliyevin bənzərsiz tarixi şəxsiyyət kimi dövlətçiliyimizin təşəkkülündə və inkişafında müstəsna rolu danıl-









mazdır. Ümummilli Lider haqqında yazdığı kitabı haqqında ətraflı məlumat verən E.Axundova eyni zamanda bu günlərdə Moskvada işıq üzü görmüş Heydər Əliyevə həsr olunan yeni üçcildliyi təqdim edib. Müəllifi olduğu "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" yeni əsəri barədə də bəhs edərək, ölkə Prezidenti cənab İlham Əliyevin öz xalqının əsl liderinə və müasir dövrün ən parlaq siyasi xadimlərindən birinə çevirən şəxsi keyfiyyətlərini vurğulayıb.

Ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolundan və milli dövlətçilik tariximizdə misilsiz xidmətlərindən, o cümlədən hüquqi dövlət quruculuğu naminə müstəsna fəaliyyətindən, respublikamızın məhkəmə-hüquq sisteminin, o cümlədən ədliyyə orqanlarının inkişafına qayğısından danışıb, Heydər Əliyev irsinin öyrənilməsində, həmçinin Azərbaycan və onun rəhbərindən bəhs edən bu əsərlərin gələcək nəsillərə dəyərli töhfə olduğunu bildirib.

Nazir Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq bu gün ölkəmizin möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli davamlı tərəqqisini, təhlükəsizliyinin etibarlı qorunduğunu vurğulayıb, mötəbər beynəlxalq humanitar, mədəni forumlara, idman yarışlarına, o cümlədən bu günlərdə İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edən Azərbaycanın dünyada rolunun və nüfuzunun günbəgün artdığını qeyd edib.

Çıxış edən ədliyyə işçiləri Ümummilli Liderin işıqlı xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını söyləyib, dahi rəhbərin milli özünüdərkin formalaşmasında əvəzsiz rolunu vurğulayıb, onun dövlətçilik prinsiplərinə daim sadiq qalaraq, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə yorulmaz fəaliyyətində ölkə Prezidentinə layiqli yardımçı olacaqlarını bildiriblər.





# Ədliyyə naziri Tovuz rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 26-da ədliyyə naziri Fikrət Məmmədov Tovuz rayonu Olimpiya İdman Kompleksində Tovuz, Şəmkir, Gədəbəy və digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, bölgənin hakimləri və ədliyyə işçiləri ilə müşavirə keçirib.



Nazir ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılmasını, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyini, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini qeyd edib, aidiyyəti tövsiyə və tapşırıqlar verib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# Ədliyyə Nazirliyində görüşlər



**Respublikamız nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən 100-dən çox dövləti birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli əməkdaşlıq edərək, təşkilatın rəhbər orqanları olan İcraiyyə Komitəsində və Senatında təmsil olunur.**

Mayın 2-də ədliyyə naziri, Assosiasiyanın senatoru və fəxri üzvü Fikrət Məmmədovun ölkəmizdə səfərdə olan BPA-nın baş katibi Han Moraal və icraçı direktoru xanım Yanne Holst Hübner ilə görüşü olub.

Azərbaycanın Assosiasiya ilə uzun illər sıx əməkdaşlıq etdiyini vurğulayan nazir 2002-ci ildə BPA-nın İcraiyyə Komitəsinin iclasının Bakıda uğurla keçirildiyini və komitə üzvlərinin ümummilli lider Heydər Əliyev tərəfindən qəbul olunduğunu xatırladıb, təşkilatın rəhbər şəxslərinin dəfələrlə respublikamıza səfərlər etdiyini söyləyib. Həmçinin, ölkəmizin qurumun işində yaxından iştirakı, o cümlədən BPA-nın saytının və xüsusi internet şəbəkəsinin aparılması, sənədlərinin tərcümə edilərək nəşr olunması və prokurorlar arasında yayılması qeyd olunub. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə sistemində, ədliyyə və prokurorluq orqanlarında aparılan islahatlar və yeniliklər barədə faydalı fikir mübadiləsi aparılıb.

H.Moraal ölkəmizə səfərindən məmnunluğunu ifadə edərək son 25 il ərzində respublikamızın heyranedici hərtərəfli inkişafını və müsbət dəyişikliklərin geniş vüsət aldığını vurğulayıb, məhkəmə-hüquq islahatlarını, o cümlədən infrastrukturun müasirləşdirilməsini təqdir edib. Qonaq Azərbaycanın BPA ilə uğurlu əməkdaşlığını, uzun illər Assosiasiyanın işinə verdiyi dəyərli töhfələrini, güclü dəstəyini və fəal təmsilçiliyini qeyd edib. Həmçinin, qarşılıqlı fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyini bildirərək gələn il BPA-nın İcraiyyə Komitəsinin iclasının Bakıda yüksək səviyyədə təşkil olunacağına əminliyini söyləyib.

Görüşdə həmçinin, dünyada sənaye üsulu ilə ilk neftin 1846-cı ildə Azərbaycanda çıxarıldığı və bu günlərdə dövlət başçısının həmin quyunun bərpasından sonra yaradılmış abidə ilə tanış olduğu bildirilərək qonaqlara neftlə çəkilmiş rəsm təqdim edilib.

Tədbirdə Assosiasiyanın İcraiyyə Komitəsinin Azərbaycandan olan üzvü, Baş prokurorun müavini, Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi Kamran Əliyev iştirak edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər çərçivəsində BPA-nın yüksək rəsmiləri, həmçinin bölgələrdə yeni inşa olunmuş müasir məhkəmə binaları ilə tanış olublar.

**Mayın 30-31-də Almaniya Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun (İRZ) icraçı direktoru xanım Veronika Keller-Engels başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olub.**

İRZ təmsilçiləri əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini yad ediblər. Qonaqlar həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin



məzarlarını ziyarət ediblər.

Səfər zamanı ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov İRZ-nin nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan və Almaniya Federal Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən və bu ay 25 illiyini qeyd edən Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunaraq 2009-cu ildə iki ölkənin Ədliyyə nazirlikləri arasında imzalanmış Birgə Bəyanatın implementasiyası çərçivəsində İRZ-nin fəal iştirakı və həyata keçirilən tədbirlərdə dəstəyi qeyd edilib, hüquqi sahədə aparılan təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər məhkəmə və ədliyyə, o cümlədən penitensiar sahədə həyata keçirilən islahatlar və yeniliklər barədə məlumat verib, dövlətimizin başçısının cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatların yeni mərhələyə keçdiyini qeyd edib.

Respublikamıza ilk dəfə səfərindən məmnunluğunu ifadə edən qonaq İRZ-nin Ədliyyə Nazirliyi ilə səmərəli əməkdaşlığını qeyd edərək qarşılıqlı fəaliyyətin genişləndirilməsinə hazır olduğunu və bunun üçün yaxşı perspektivlərin olduğunu bildirib. Xanım V.Keller-Engels Almaniya federal ədliyyə nazirinin salamlarını çatdırıb.

Nümayəndə heyəti ölkəmizdə məhkəmə-hüquq sistemində aparılan islahatları, o cümlədən infrastrukturun müasirləşdirilməsini, elektron məhkəmənin tətbiqini təqdir edərək səfər zamanı Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin müasir binası ilə tanışlıqdan heyranlığını ifadə edib. Qonaqlar, həmçinin Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin vətəndaş məmnunluğunu təmin edən fəaliyyətini yüksək qiymətləndiriblər.

Görüşdə probasiya və mediasiya institutlarının tətbiqi ilə bağlı təcrübə mübadiləsinin aparılması, hakimlərin və hakimliyə namizədlərin tədrisi, məhkəmə qərarlarının icrası və digər sahələr üzrə əməkdaşlığa dair məsələlər müzakirə olunub, konkret təkliflər irəli sürülüb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər çərçivəsində İRZ-nin nümayəndə heyəti, həmçinin Ali Məhkəməyə baş çəkərək məhkəmənin əzəmətli binası və fəaliyyəti ilə tanış olub. Eyni zamanda qonaqlar ayrı-ayrı ədliyyə qurumlarında olub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

**Mayın 22-də ölkəmizdə səfərdə olan Açıq Hökumət Tərəfdaşlığı Təşkilatının nümayəndə heyəti ilə ədliyyə nazirinin müavini Toğrul Musayevin görüşü keçirilib.**

Nazir müavini ölkəmizdə dövlət başçısının siyasi iradəsi ilə açıq hökumətin təşviqi üzrə həyata keçirilən tədbirlər, o cümlədən vətəndaş cəmiyyətinin inkişafı və ictimai iştirakçılıq barədə məlumat verib, ədliyyə sistemində şəffaflığın və ictimai nəzarət mexanizmlərinin geniş tətbiq olunduğunu, əhaliyə müxtəlif növ elektron xidmətlərin göstərildiyini qeyd edib. Həmçinin, görüşdə qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hər cür





şəraitin yaradıldığı, bu sahədə qanunvericilik bazasının təkmilləşdirildiyi bildirilib.

Qonaqlar Azərbaycanda son illər həyata keçirilən islahatları və yenilikləri məmnunluqla qarşılayaraq, açıq hökumət prinsiplərinin tətbiqində Ədliyyə Nazirliyinin iştirakının əhəmiyyətini qeyd ediblər.

Söhbət zamanı Azərbaycanın üzv olduğu bu təşkilatla qarşılıqlı fəaliyyətin davam etdirilməsində maraq ifadə olunub, faydalı fikir mübadiləsi aparılıb.

**Ölkəmizdə səfərdə olan Bolqarıstanın Prokurorluğunun rəhbər şəxsləri ilə mayın 23-də ədliyyə nazirinin müavini Azər Cəfərovun görüşü olub.**

Görüşdə Azərbaycan və Bolqarıstan arasında dostluq və əməkdaşlıq münasibətlərinin, hüquqi sahədə əlaqələrin inkişafı vurğulanaraq, ölkələrimizin hüquq-mühafizə, o cümlədən ədliyyə orqanlarının səmərəli qarşılıqlı fəaliyyəti qeyd olunub, hər iki dövlətdə məhkəmə-hüquq sistemində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb.

Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, hakimlərin və məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsi baxımından Şuranın səlahiyyətlərinin mütəmadi genişləndirilməsi barədə məlumat verib. A.Cəfərov hakimlərin ən şəffaf seçimi və tədrisindən bəhs edərək, bu sahədə nüfuzlu beynəlxalq təşkilatlarla, xüsusilə Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyası (CEPEJ), Almaniya



Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə əməkdaşlığı vurğulayıb.

Ölkəmizin məhkəmə-hüquq sahəsindəki nailiyyətlərini maraqla qarşılayan qonaqlar Bolqarıstanın hüquq və məhkəmə sistemi haqqında danışaraq bu sahədə islahatların aparıldığını, bütövlükdə məhkəmə sisteminin, habelə cinayət, cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsini, Ali Məhkəmə Şurasının fəaliyyətini qeyd ediblər. Həmçinin, daha sıx əməkdaşlıq edilə bilən sahələr barədə söhbət aparıb, təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri, o cümlədən hakim assosiasiyalarının rolu, mediasiya institutunun tətbiqi və digər maraq doğuran məsələlər müzakirə olunub, qonaqların suallarına aydınlıq gətirilib.

Tədbirdə Baş prokurorun müavini, Korrupsiyaya qarşı mübarizə baş idarəsinin rəisi Kamran Əliyev iştirak edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.



**Mayın 25-də ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) ölkəmizdəki nümayəndəliyinin rəhbəri xanım Elena Sesseranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə BQXK-nın Ədliyyə Nazirliyi, o cümlədən Penitensiar xidmətlə səmərəli əməkdaşlığı qeyd olunub, qarşılıqlı fəaliyyətin gələcək perspektivləri müzakirə olunaraq Komitənin penitensiar müəssisələrə çoxsaylı başçəkmələrinin nəticələri, o cümlədən məhkumların saxlanma şəraiti və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlar Azərbaycanla ədliyyə sahəsində əməkdaşlığın uğurlu nəticələrini qeyd edib, Penitensiar xidmətin şəxsi heyətinin təliminə toxunaraq bu ilin payızında Şotlandiya Həbsxana xidmətinin dəstəyi ilə bu ölkəyə tədris səfərinin nəzərdə tutulduğunu və xidmətin müvafiq rəhbər heyətinin həmin səfərdə iştirakının əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı, həmçinin əməkdaşlığa dair müqavilənin müddətinin uzadılması ilə bağlı və s. məsələlər müzakirə edilib, Komitə ilə Ədliyyə Nazirliyi arasında qarşılıqlı fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

# Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Penitensiar xidmət rəhbərləri Şurasının ikinci toplantısı



**Mayın 11-də Belarus Respublikasının paytaxtı Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Penitensiar xidmət rəhbərləri Şurasının ikinci toplantısı keçirilib.**

Penitensiar xidmətin nümayəndələrinin müşahidəçi qismində təmsil olunduğu əsas iclasda Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Moldova və digər dövlətlərin cəza icra xidmətlərinin rəhbərləri iştirak ediblər.

Toplantıda Azərbaycanı Ədliyyə Nazirliyi Penitensiar xidmətinin rəis müavini Hüseyn Əlixanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Şuranın təşkilati iclasında qəbul edilmiş 2016-2017-ci illər üzrə iş planının icrası, penitensiar sahədə təcrübə və iş metodlarının öyrənilməsi və bölgüsü, qarşılıqlı əməkdaşlıq, işçi qrupların yaradılması, məhkumların ekstradisiyası və s. məsələlər müzakirə edilib.

Tədbir çərçivəsində Şuranın həmsədri, toplantıya ev sahibliyi edən Belarus Respublikasının Daxili İşlər Nazirliyi Cəzaların icrası idarəsinin rəisi S.İ.Doroşko ilə görüş keçirilib.

Görüşdə Belarus və Azərbaycan arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin olduğu vurğulanaraq, ədliyyə, o cümlədən penitensiar xidmət sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib, hər iki dövlətin cəza-icra siyasəti, penitensiar sistemdə aparılan islahatlar barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb.



**Belarusun Daxili İşlər Nazirliyi Cəzaların icrası departamenitinin rəhbəri S.İ.Doroşko ilə görüş**

S.İ.Doroşko Azərbaycan Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamını, son illər penitensiar sistemdəki nailiyyətləri maraqla qarşılayıb, penitensiar müəssisələrdə vərəmlə mübarizə sahəsində ölkəmizin müsbət təcrübəsindən Belarusun da yararlandığını vurğulayıb.

Səfər zamanı Cəzaların icrası

departamentinin təşəbbüsü ilə penitensiar müəssisələrə baş çəkilərək məhkumların saxlanma şəraiti, islah prosesi, istehsalat sahələri ilə tanış olunub.

Azərbaycan nümayəndə heyəti, həmçinin 9 may - Qələbə günü münasibətilə keçirilən bayram tədbirlərində iştirak edib. Xatın faciəsini əks etdirən və müharibədə məhv edilmiş kəndin yerində salınmış açıq hava muzey-kompleksinə, Şöhrət Kurqanına baş çəkilib, əklillər qoyulub. Müharibə dövründə Belarus xalqının qəhrəmanlıq tarixini əks etdirən Böyük Vətən Müharibəsi Muzeyinə səfər təşkil edilib.

Eyni zamanda, Brestin müdafiəçilərinin xatirəsinə ucaldılmış abidə önünə fəxri qarovulun müşayiəti ilə gül dəstələri və əklil qoyulub. Departamentin orkestrinin müşayiəti ilə Azərbaycan nümayəndə heyətinin şərəfinə xidmət əməkdaşlarının hərbi keçidi təşkil edilib.

Sonda Brestin yerli televiziyasına və Belarus Dövlət televiziyasına müsahibə verilib.

# Hakimliyə namizədlər Türkiyədə təlim keçiblər

**Ölkə Prezidenti İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqlarına uyğun olaraq hakim korpusunun yüksək hazırlıqlı hüquqşünaslar hesabına formalaşdırılması ilə bağlı tədbirlər görülür, bu məqsədilə Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçim qaydası tətbiq olunur.**

Hazırda çoxmərhələli prosedurlara uyğun aparılmış növbəti seçim zamanı uğur qazanmış 126 nəfər namizəd lazımi biliyə və peşə hazırlığına yiyələnmələri üçün Ədliyyə Akademiyasında bir illik nəzəri və təcrübi kurs keçirlər. Kurs zamanı onların, həmçinin beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetirilir.

Bu məqsədlə bütün hakimliyə namizədlərin Türkiyədə nəzəri və praktiki təlimlər keçməsi üçün qardaş ölkənin Ədliyyə Akademiyası ilə razılıq əldə olunub və artıq namizədlərdən 60 nəfərdən çoxu Türkiyə dövlətinin hesabına Ankarada iki həftəlik tədris səfərlərində olublar. Kursun proqramına uyğun olaraq digər namizədlər də bu təlimlərə cəlb olunacaqlar.



Səfər zamanı azərbaycanlı hüquqşünaslar Ankarada Heydər Əliyev parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə əklil qoyub, əziz xatirəsini ehtiramla yad ediblər.

Təcrübəli mütəxəssislərin iştirakı ilə keçirilən təlimlər zamanı Avropa İnsan hüquqları Məhkəməsinin presedent hüququ, mülki və cinayət prosessual hüququn bəzi müddəaları, məhkəmə iclasının idarə olunması və s. aktual mövzular üzrə tədris olunub, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.



Namizədlər, həmçinin Türkiyə Böyük Millət Məclisində, Ali Məhkəmədə, Ədliyyə Nazirliyində, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyində təcrübi məşğələlər keçib, Türkiyənin məhkəmə-hüquq sistemi ilə tanış olub, habelə 28 may Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyində keçirilmiş tədbirdə iştirak ediblər.

# İnsan Hüquqları Aylığı çərçivəsində tədbirlər





**Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən ölkəmizdə hər il qeyd olunan 18 iyun - İnsan Hüquqları Gününün təsis edilməsinin 10 ili tamam olur.**

Bu münasibətlə İnsan Hüquqları Aylığı çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən tədbirlər təşkil olunaraq dövlətimizin ali məqsədlərindən biri kimi müəyyən edilmiş insan hüquq və azadlıqlarının təmin olunması, hüquq bərabərliyi üzərində qurulmuş multikultural dəyərlərin təşviqi, eyni zamanda, açıq hökumət prinsiplərinin tətbiqi, vətəndaşların məmnunluğunu təmin edən müxtəlif növ elektron xidmətlərin göstərilməsi və s. mövzularda hüquqi maarifləndirmə işləri aparılır, bu məqsədlə Ədliyyə Akademiyasının, regional ədliyyə idarələrinin imkanlarından istifadə etməklə seminar-müşavirələr, təlimlər, "açıq qapı" günləri keçirilir.

Davam edən tədbirlər çərçivəsində Ədliyyə Akademiyası tərəfindən Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) ilə birgə mayın 22-23-də "Uşaqlar üçün ədliyyə" mövzusunda ikigünlük təlim təşkil olunub.

Təlimdə iştirakçı qismində Bakı şəhərinin Xətai, Nəsimi və Səbail rayonlarında fəaliyyət göstərən ədliyyə, polis, prokurorluq və yerli yetkinlik yaşına çatmayanların işləri və hüquqları üzrə komissiyalarından 25 nəfərədək nümayəndə iştirak edib.

Tədbirdə qeyd olunub ki, ölkəmizdə insan haqlarının, o cümlədən cəmiyyətimizin ən kövrək təbəqəsi olan uşaqların hüquqlarının qorunmasına daim xüsusi diqqət yetirilir, bu sahədə beynəlxalq təşkilatlarla, xüsusilə UNİCEF-lə sıx əməkdaşlıq edilərək 2008-ci ildən yuvenal ədliyyə islahatlarının dəstəklənməsi üçün hər il üzrə birgə fəaliyyət planları işlənilərək təsdiq olunur və uğurla həyata keçirilir. Səmərəli qarşılıqlı fəaliyyət nəticəsində yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilərkən onların hüquqlarının müdafiəsinin gücləndirilməsi, psixoloji aspektlərin nəzərə alınması, yeni yanaşmaların və müasir İKT-lərin tətbiqi, yuvenal ədliyyə sahəsində təlimlərin keçirilməsi və s. ilə bağlı tədbirlər görülüb, Bakı Ağır Cinayətlər Məhkəməsində bu kimi işlərə baxılması üçün pilot layihə qaydasında xüsusi hakim tərkibi müəyyən edilib, ayrıca məhkəmə zalı yaradılaraq müvafiq avadanlıqla təchiz olunub.

Təlimə mühazirəçi qismində cəlb olunmuş UNİCEF-in, HUMEL psixologiya mərkəzinin ekspertləri, Ədliyyə Akademiyasının, Daxili İşlər Nazirliyinin, Ombudsman aparatının məsul nümayəndələri tərəfindən "Yuvenal ədliyyə" və "Uşaqlar üçün ədliyyə" arasında fərqlər və oxşarlıqlar, "Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin mövcud durumu", "Qanun pozuntusu törətmiş uşaqlarla, şahid və cinayət qurbanları ilə bağlı işlərdə yuvenal ədliyyə prosesi", "Polis tərəfindən cinayət törətməkdə şübhəli bilinən uşaqlarla, şahid və qurbanlarla ilkin söhbət", "Yuvenal ədliyyə sahəsində yerli qanunvericilik və uşaqların ən ümdə maraqları", "Həbs ən son mümkün vasitə kimi" mövzularında mühazirələr, kazuslar üzərində iş aparılıb, həmçinin "Həbsdən kənar" filmi nümayiş etdirilib.

***

Bununla yanaşı, mayın 30-da nazirliyin aidiyyəti struktur qurumlarının məsul əməkdaşlarının iştirakı ilə Şirvan regional ədliyyə idarəsində "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı maarifləndirməyə dair "açıq qapı" günü keçirilib.

Yerli ədliyyə, o cümlədən qeydiyyat, notariat və icra qurumları əməkdaşlarının, habelə qeyri-hökumət təşkilatlarının təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirdə açıq hökumət prinsiplərinin tətbiqinin, əhaliyə elektron xidmətlərin göstərilməsinin vətəndaşların hüquqlarının təmin olunması, onların müraciət imkanlarının asanlaşdırılması baxımından əhəmiyyəti qeyd olunub, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər barədə ictimai təqdimat keçirilib.

Elektron xidmətlərin imkanları və istifadəsi qaydaları ilə ətraflı tanış olan tədbir iştirakçıları əhaliyə belə asan və şəffaf xidmətlərin göstərilməsindən məmnunluğunu ifadə edib, onları maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Ədliyyə Nazirliyi tərəfindən İnsan Hüquqları Aylığı çərçivəsində tədbirlər davam etdirilir.

# Ədliyyə Akademiyası hakimlər, vəkillər və digər hüquqşünaslar üçün təlimlər keçirib



**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə edilir, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri keçirilir.**

Cari ilin mayında Ədliyyə Akademiyası tərəfindən Avropa Şurası ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində mülkiyyət hüququ və ayrı-seçkiliyin qadağan olunması" mövzusunda təlim keçirilib.

Təlimdə Avropa Şurasının beynəlxalq eksperti İvana Roagnanın, Bakı Apellyasiya və Yasamal Rayon məhkəmələrinin hakimlərinin təqdimatları dinlənilib.

Apellyasiya və birinci instansiya məhkəmələrindən 20-dən artıq hakimin cəlb olunduğu təlimdə mülkiyyətin (əmlak) anlayışı: daxili qanunvericilik və Avropa Məhkəməsinin yanaşması, mülkiyyətdən məhrum edilmə, istifadəyə nəzarət və maneəsiz istifadə prinsipi, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi üzrə mülkiyyət hüququnun məhdudlaşdırılması və müdafiəsi, həmin maddə üzrə Azərbaycanla bağlı qərarların müzakirəsi, Avropa Məhkəməsi standartlarında ayrı-seçkiliyin qadağan olunması: əhatə dairəsi, müdafiə olunan əsaslar, 14-cü maddəyə və 12 Saylı Protokolun 1-ci maddəsinə əsasən ayrı-seçkiliyin qadağan olunması, komparatorun anlayışı, ağlabatan və obyektiv əsaslandırma kimi məsələlər tədris olunub və mövzu ilə bağlı kazuslar müzakirə edilib.

Eyni zamanda, apellyasiya və birinci instansiya məhkəmələrindən 11 hakim üçün "Hakimlərin deontologiya məsələləri və Etik Davranış Kodeksi" mövzusunda ixtisasartırma kursu keçirilərək hakimlərin etik davranışının xüsusiyyətləri, milli qanunvericilik və təcrübə, müasir idarəetmənin sosial-hüquqi aspektləri, hakimlərin kütləvi-informasiya vasitələri ilə qarşılıqlı münasibətləri kimi mövzularda mühazirələr oxunub.

Bununla yanaşı, Akademiya tərəfindən Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının bir hissəsi olan "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" adlı layihəsinin icrası çərçivəsində Bakı şəhəri və regionlarda silsilə təlimlər davam etdirilərək Şəkidə vəkillərdən və məhkəmə aparatı işçilərindən ibarət 35 nəfər dinləyici üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ) və 14-cü maddə (Ayrı-seçkiliyin qadağan olunması) mövzusunda ixtisasartırma kursu təşkil edilib.



**Akademiyada Tibb xidmətinin əməkdaşları üçün də təlim təşkili edilib. "Mülki müdafiə işinin təşkili" mövzusunda keçirilmiş təlimdə 20 nəfər iştirak edib.**

Nazirliyin Penitensiar xidmətinin Təlim mərkəzinin müəllim heyəti dinləyicilərə "Mülki müdafiə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi və bu işin təşkili məsələləri", "Mülki müdafiə sahəsində ədliyyə orqanlarının və işçilərinin vəzifələri, bununla bağlı həyata keçirilmiş tədbirlər", "Xüsusi texniki vasitələr və onların tətbiqi qaydaları" mövzuları üzrə mühazirələr oxuyublar.

**Ədliyyə Akademiyası tərəfindən rayon (şəhər) qeydiyyat şöbələrinin və nikah evlərinin əməkdaşları və icra məmurları üçün "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlimlər keçirilib.**

90-a yaxın dinləyicinin iştirak etdiyi təlimlərdə "Korrupsiyaya qarşı mübarizə və antikorrupsiya mədəniyyəti", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması", "Ədliyyə orqanları işçilərinin etik davranış Qaydaları və bu Qaydaların pozulmasına görə məsuliyyət" mövzuları üzrə müzakirələr aparılıb.

Akademiya tərəfindən bu mövzuda tədbirlərin bütün ədliyyə işçiləri üçün keçirilməsi nəzərdə tutulur.

**İcra məmurları və regional ədliyyə idarələrinin əməkdaşları üçün "İnformasiya-kommunikasiya texnologiyalarının müasir imkanları və ədliyyə orqanlarında tətbiqi məsələləri", "Probasiya xidməti və cəza siyasətinin humanistləşdirilməsinin əsas vəzifələri" mövzularında da təlimlər təşkil edilib.**

60-dək dinləyicinin iştirak etdiyi təlimlərdə "Ədliyyə Nazirliyində tətbiq olunan informasiya sistemləri", "Ədliyyə orqanlarında elektron sənəd dövriyyəsi sisteminin təşkili və tətbiqi məsələləri", "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" və ədliyyə orqanları qarşısında duran vəzifələr", "Elektron imza və onun tətbiqi məsələləri", "Elektron hökumət, elektron xidmətlərin mahiyyəti və fəaliyyət prinsipləri. Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən elektron xidmətlər", "Kompüterlərdən istifadə bacarıqlarının inkişaf etdirilməsi üzrə məşğələ" və s. mövzular tədris edilib.

Eyni zamanda dövlət başçısının cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətinə toxunularaq bu mühüm sənədlə nazirlikdə Probasiya xidmətinin yaradıldığı, bununla əlaqədar qarşıda mühüm vəzifələrin dayandığı bildirilib, bu sahə ilə məşğul olacaq əməkdaşların bilik və bacarıqlarının inkişaf etdirilməsinin, peşəkarlığının artırılmasının zəruriliyi diqqətə çatdırılıb.

Bu məqsədlə keçirilmiş təlimdə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan Sərəncamı və ondan irəli gələn vəzifələr, eləcə də "Penitensiar müəssisələrin fəaliyyətinə nəzarət və onun formaları", "Probasiya (azadlıqdan məhrumetməyə alternativ sanksiyaların tətbiqi)" mövzularında mühazirələr oxunub.

Ədliyyə Akademiyasında icra məmurları üçün, həmçinin "İcra işinin təkmilləşdirilməsinin aktual məsələləri. Vergi borclarının alınması ilə bağlı informasiya mübadiləsi" mövzusunda ixtisasartırma kursu keçirilib. 20-dək dinləyicinin qatıldığı kursda "İcra sənədi üzrə işdə iştirak edən şəxslərə münasibətdə icra məmurunun hüquq və vəzifələri", "Vergi borclarının alınması ilə bağlı məhkəmə qərarlarının icrasına dair Vergi Məcəlləsinə və "İcra haqqında" Qanuna edilmiş dəyişikliklər", "İcra işinin təkmilləşdirilməsi və statistik hesabatların tətbiqi" və s. mövzular dinlənilib.



# Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində tələbələrlə görüş

**Mayın 22-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi ixtisaslarında təhsil alan II və III kurs tələbələri ilə görüş olub.**



Tədbirdə çıxış edən Muxtar Respublikanın ədliyyə naziri Suliddin Əliyev çıxış edərək Ali Məclis Sədrinin Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair Sərəncamına uyğun olaraq tələbələrlə müxtəlif tədbirlərin həyata keçirildiyini bildirib, Naxçıvan Dövlət Universiteti ilə Muxtar Respublikanın Ədliyyə Nazirliyi arasında səmərəli qarşılıqlı fəaliyyəti qeyd edərək bu münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyini vurğulayıb.

Bildirilib ki, nazirlik tərəfindən mütəmadi olaraq tələbələrlə görüşlər keçirilir. Gənclər nazirliyin, Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyəti, şöbə və bölmələrinin işi ilə maraqlanıb, Mərkəzin müvafiq laboratoriyalarında ekspertiza işlərinin aparılmasında yaxından iştirak ediblər. Həmçinin, Naxçıvan şəhər bələdiyyəsi və nazirliyin Penitensiar Xidmətində iş prinsipi ilə tanış olublar.

Tədbirdə tələbələrə aidiyyəti sahələr üzrə məlumatlar verilib, onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Ədliyyə naziri yanında İctimai Komitənin iki illik səlahiyyət müddəti başa çatır

**Ölkə Prezidenti İlham Əliyev tərəfindən vətəndaş cəmiyyətinin inkişafına, ictimai iştirakçılığın geniş tətbiqinə xüsusi diqqət yetirilir. Bu məqsədlə 2006-cı ildən müvafiq Qaydalara əsasən ədliyyə naziri yanında tərkibi qeyri-hökumət hüquq müdafiə təşkilatlarının nümayəndələrindən formalaşdırılmış İctimai Komitə uğurla fəaliyyət göstərir.**

Ötən dövrdə Komitənin fəaliyyəti xeyli təkmilləşdirilib, o cümlədən "İctimai iştirakçılıq" haqqında Qanuna uyğun olaraq səlahiyyətləri genişləndirilib. Müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunan İctimai Komitə mütəmadi olaraq cəzaçəkmə müəssisələrinə başçəkmələr həyata keçirir, məhkumların islah prosesində, onlara hüquqi yardımın göstərilməsində, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqində fəal iştirak edir.

Eyni zamanda, Nazirliyin kollegiya iclaslarında, konfrans və seminarlarda, habelə qulluğa qəbulla bağlı müsabiqələrdə Komitə üzvlərinin iştirakları təmin olunur, birgə "açıq qapı" günləri keçirilir, vətəndaş cəmiyyətinin nümayəndələri ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi üzrə monitorinqlərə cəlb olunurlar.

Bildirilir ki, müvafiq Qaydalara uyğun olaraq fəaliyyət göstərən İctimai Komitənin iki illik səlahiyyət müddətinin cari il iyun ayının 25-də başa çatması ilə əlaqədar qurumun yeni tərkibinin formalaşdırılması nəzərdə tutulur.

Bununla əlaqədar tərkibi millət vəkillərindən, nüfuzlu ictimaiyyət nümayəndələrindən, alimlərdən, din xadimlərindən və aidiyyəti orqanların təmsilçilərindən ibarət olan Seçki Komissiyası tərəfindən İctimai Komitə üzvlərinin fəaliyyəti təhlil edilərək qiymətləndirilir, namizədlər arasında seçim aparılır.

İctimai Komitənin fəaliyyətində iştirak etmək istəyən müvafiq sahələr üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları və hüquq müdafiəçiləri öz pro-

qram və təklifləri ilə Ədliyyə Nazirliyinə - Seçki Komissiyasına müraciət edə bilərlər. Müraciətə həmçinin, namizədin ərizəsi, onun barəsində ətraflı məlumat, o cümlədən əmək fəaliyyətini, təhsilini xarakterizə edən sənədlər əlavə edilməlidir.

Əlavə məlumat əldə etmək üçün Nazirliyin (012) 510-52-83, (012) 537-06-70 nömrəli telefonları ilə əlaqə saxlamaq olar.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür

**Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılmasına, onlara metodiki köməkliyin gücləndirilməsinə, bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsinə daim xüsusi diqqət yetirilir, bu məqsədlə Ədliyyə Akademiyasının, regional ədliyyə idarələrinin imkanlarından istifadə olunmaqla mütəmadi təlimlər, seminar-müşavirələr keçirilir.**

Cari ilin mayında Ədliyyə Akademiyasının və Gəncə, Şəmkir, Lənkəran, İmişli regional ədliyyə idarələrinin təşkilatçılığı ilə həmin qurumların ərazi yurisdiksiyalarına daxil olan rayonların bələdiyyə nümayəndələrinin maarifləndirilməsi məqsədilə seminar-müşavirələr keçirilib.

Tədbirlərdə qeyd olunub ki, yaradıldığı gündən dövlətin yaxından dəstəyini hiss edən bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, bu sahədə qanunvericilik möhkəmlənir, bələdiyyələr tərəfindən vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində yaxından iştirak edilir, fəaliyyətlərində qanunçuluğun, şəffaflığın təmin olunmasına xüsusi önəm verilir, icra orqanları və qeyri-hökumət təşkilatları ilə səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.

Seminar-müşavirələrdə "İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu", "Bələdiyyə torpaqlarının idarə edilməsində qanunçuluğun təmin edilməsi, təyinatı üzrə istifadə edilməsi və mühafizəsi sahəsində bələdiyyələrin vəzifələri", "Bələdiyyələrdə vergi işinin səmərəliliyinin artırılması", "Şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Vətəndaşların müraciətləri haqqında Qanundan irəli gələn vəzifələr", "Bələdiyyələrdə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili" və s. aktual mövzular üzrə məruzələr dinlənilib.

Sonda bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Məhkəmə ekspertizası mərkəzinə qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edilir

**Ədliyyə Nazirliyi Məhkəmə ekspertizası mərkəzinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında xüsusi biliyə və zəruri peşə keyfiyyətlərinə malik mütəxəssislərlə komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.**

Hazırda Mərkəzin Müsabiqə Komissiyası tərəfindən növbəti açıq müsabiqə elan edilir.

Vakant ştat vahidləri Məhkəmə ekspertizası mərkəzində əsasən filologiya (Azərbaycan dili və ədəbiyyatı), fizika, inşaat mühəndisliyi, mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi, yol hərəkətinin təşkili, yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi, iqtisadiyyat, mühasibat uçotu və audit, maliyyə, eləcə də Mərkəzin Şirvan regional bölməsində kimya ixtisası üzrədir.

Ədliyyə orqanlarında qulluq keçmə ilə bağlı qanunvericiliyin tələblərinə cavab verən həmin ixtisaslar üzrə ali təhsilə malik Azərbaycan Respublikasının vətəndaşları müsabiqəyə dəvət olunur.

Arzu edənlər 2017-ci ilin may ayının 4-dən etibarən müəyyən olunmuş ərizə formasını və digər zəruri sənədləri aşağıda göstərilən ünvanlarda:

- Məhkəmə ekspertizası mərkəzinin inzibati binasında (Bakı şəhəri, Xəqani küçəsi 24, tel: (012) 498-09-71);

- Mərkəzin Gəncə regional bölməsində (Gəncə şəhəri, Kəpəz rayonu, V.Xuluflu küçəsi 11, tel:

(0222) 65-18-96);

- Mərkəzin Şəki regional bölməsində (Şəki şəhəri, Salman Mümtaz küçəsi 1, tel: (+99470) 229-30-29);

- Mərkəzin Şirvan regional bölməsində (Şirvan şəhəri, 20 yanvar küçəsi 16, tel: (02121) 5-55-91) təqdim edə bilərlər.

Müsahibədə iştirak etmək üçün qanunvericiliyə əsasən tələb olunan sənədlərin siyahısı və imtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Mərkəzin internet səhifəsində (www.expert.gov.az) "İşə qəbul" bölməsində yerləşdirilib, habelə Mərkəzə və onun regional bölmələrinə müraciət edənlərə veriləcəkdir.

Mərkəzin internet səhifəsindən, eləcə də yuxarıda göstərilən telefon nömrələrinə zəng etməklə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Ədliyyə Nazirliyi İKT üzrə mütəxəssisləri qulluğa qəbulla bağlı açıq müsabiqəyə dəvət edir

**Ədliyyə sistemində informasiya texnologiyalarının tətbiqinin mərkəzləşdirilmiş və mütəşəkkil qaydada aparılması, elektron xidmətlərin genişləndirilməsi, bu sahədə davamlı inkişafın təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyində yeni yaradılmış İnformasiya-kommunikasiya texnologiyaları idarəsində vakant vəzifələrin zəruri hazırlığa malik peşəkar mütəxəssislərlə komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilir.**

Bununla əlaqədar qanunvericiliyin tələblərinə cavab verən aşağıda göstərilən sahələrdə xüsusi biliklərə malik Azərbaycan Respublikası vətəndaşları açıq müsabiqədə iştirak etməyə dəvət olunur:

**1. Mühəndis-proqramçı (3 nəfər):**

Proqramlaşdırma bilikləri: C#, VB, JAVA, Android, İOS, Ajax, HTML, CSS, JavaScript, JQuery, Ajax, Angular JS;

Məlumat bazası bilikləri: MySQL, MsSQL, Oracle, PL/SQL;

Java veb texnologiyaları: Servlet, JSP, JSF, Primeface;

Veb servislər: SOAP, Restful, DevExpress.

**2. Veb-dizayner (1 nəfər):**

HTML5, CSS3, Bootstrap Framework, JavaScript, JQuery, Prototype, Angular;

Adobe İllustrator, Photoshop, AfterEffects, Premiere, Corel DRAW;

RESTful veb servislərlə işləmək bacarığı.

**3. Məlumat bazası üzrə analitik (1 nəfər):**

Məlumat bazası bilikləri: MySQL, MsSQL, Oracle;

Əməliyyat sistemləri: Linux, Windows Server 2008, 2012 R2;

Məlumat bazalarındakı məlumatların analiz edilməsi, hesabatların alınması, backup/restore bacarığı.

**4. Sistem inzibatçısı (1 nəfər):**

Əməliyyat sistemləri: Windows Server (2008, 2012, 2016), Linux (RHEL, CentOS, Scientific);

Virtualizasiya: VMware 5.0, 6.0;

Application server: İİS 7.0, 7.5, 8.0, Tomcat 7, 8, Glassfish 3, 4;

Serverlərin sazlanması, əməliyyat sistemlərinin yüklənməsi, Domain, DNS və SSL sertifikatların qurlaşdırılması.

**5. İnformasiya sistemlərinin təhlükəsizlik analitiki (1 nəfər):**

Təhlükəsizliyin müəyyən edilməsi metodları və həllərinin idarə olunması;

Təhlükəsizliklə bağlı monitorinq və analizlərin həyata keçirilməsi, hesabatların hazırlanması;

Davam edən təhlükəsizliyin qiymətləndirilməsi, həllinin müəyyən edilməsi;

CİSSP və ya CEH sertifikatı olanlara üstünlük verilir.

İnformasiya-kommunikasiya texnologiyaları idarəsi ilə yanaşı Nazirliyə, həmçinin ixtisası üzrə zəruri iş təcrübəsinə və peşə vərdişlərinə, o cümlədən Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları və vahid büdcə təsnifatı sahəsində biliklərə malik ədliyyə orqanlarında çalışan işçilərə aid qanunverciliyin tələblərinə cavab verən **mühasib (3 nəfər) və iqtisadçılar (2 nəfər)** müraciət edə bilər.

Müsabiqədə iştirak etmək arzusunda olan şəxslər CV formalarını 2017-ci il iyun ayının 1-dən etibarən Ədliyyə Nazirliyinin Kadrlar və İnformasiya-kommunikasiya texnologiyaları idarələrinə təqdim edə bilərlər (ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti 1 və Azadlıq prospekti 72).

Aidiyyəti məsələlərə, o cümlədən tələb olunan sənədlərin siyahısına dair Nazirliyin internet səhifəsində (www.justice.gov.az) və (012) 404-42-51 telefonu vasitəsilə əlavə məlumat almaq olar.



# Ədliyyə orqanlarında vətəndaş müraciətləri daim diqqət mərkəzindədir



**Mirtale MUXTAROV,**
*Ədliyyə Nazirliyi Katibliyinin Vətəndaşların qəbulu şöbəsinin aparıcı məsləhətçisi vəzifəsini icra edən II dərəcəli ədliyyə qulluqçusu*

***Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının 57-ci maddəsində ölkə vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ nəzərdə tutulmuşdur. Həmçinin, hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməsinin zəruriliyi, eyni zamanda, vətəndaşların dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ qeyd edilmişdir.***

İnsan hüquqlarının müdafiəsi həm məhkəmə vasitəsi ilə, həm də inzibati qaydada (yuxarı) səlahiyyətli dövlət orqanına müraciət etmək yolu ilə həyata keçirilir.

Əlbəttə insan hüquqlarının məhkəmə vasitəsi ilə müdafiəsi daha universal olsa da, bu heç də inzibati qaydada səlahiyyətli dövlət orqanına müraciət etmək imkanının əhəmiyyətini azaltmır və təcrübə göstərir ki, vətəndaşlar hüquqlarının müdafiəsi ilə bağlı dövlət orqanlarına müraciət etməyə üstünlük verirlər. Bu isə təbii olaraq vətəndaşın dövlətinə böyük etimadından və onun probleminin həll ediləcəyinə inamından irəli gəlir.

İnsan hüquqları və azadlıqları demokratik hüquqi dövlətdə yüksək sosial dəyərə malikdir. Onların təmin olunması və müdafiəsi hüquqi dövlətin əsas funksiyasını təşkil edir. Konstitusiyamızın 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədlərindən biridir.

Vətəndaşın müraciət etmək hüququnun konstitusion təsbiti kifayət etmir, bu hüququn həyata keçirilmə mexanizmini tənzimləyən hüquqi baza və müraciətlərə baxılması qaydası, ona nəzarət üçün müvafiq aparatların yaradılması (təşkilatlanmanın mövcudluğu) da olduqca vacibdir.

Yaddan çıxarmaq olmaz ki, vətəndaşların müraciətləri həm də ictimai nəzarətin mühüm vasitəsidir. Müraciətlər təkcə hər hansı bir qurumun, təşkilatın və ya dövlət orqanının deyil, bütövlükdə cəmiyyətin daxilində baş verən hadisələri ifadə edən əsas göstəricilərdən biridir.

Vətəndaş müraciətləri ilə analitik iş onların müxtəlif meyarlar üzrə göstəricilərini əks etdirərək fəaliyyətin qiymətləndirilməsində mühüm rol oynayır. Belə ki, hər bir qurumun fəaliyyəti ilə bağlı məlumatı onun barəsində daxil olan vətəndaş müraciətləri vasitəsilə əldə etmək olar. Süründürməçilik, qanunvericiliyin tələblərinin pozulması, korrupsiya, qeyri-etik davranış və digər bu kimi neqativ hallarla bağlı hər bir müraciət isə xüsusilə araşdırılmalı və təxirəsalınmadan qanunamüvafiq tədbirlər görülməlidir.

Ümumiyyətlə, müraciət etmək hüququ pozulmuş hüquqların bərpasında mühüm rol oynayır. Bu, hələ pozulmuş hüquqların bərpa olunması demək deyildir və sadəcə gələcəkdə belə bir imkanı əldə etmək üçün bir vasitədir. Vətəndaş səlahiyyətli

orqana (təşkilata) yazılı və ya şifahi müraciət etməklə pozulmuş hüququnun bərpasına çalışır.

Lakin hər bir vətəndaş müraciəti heç də həmişə əsaslı olmur. Təcrübə göstərir ki, bəzi hallarda vətəndaşlar aidiyyəti olmayan məsələlərlə bağlı müraciətlər edir, əsassız tələblər irəli sürürlər. Hətta təcrübədə müntəzəm ərizə yazmaqla "bu işi" vərdişə çevirən şəxslərin də müraciətlərinə rast gəlinir. Müasir dövrdə vətəndaşların informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə müraciət imkanlarının asanlaşması bəzi sui-istifadə hallarına da (məsələn, elektron anonim müraciətlər və s.) səbəb olur.

Ancaq unutmaq olmaz ki, hər bir müraciətin yaranma səbəbi vardır. Buna görə də müraciət əsassız olsa belə ona müvafiq izahlı cavab verilməsi zəruridir. Xüsusən eyni məsələ ilə bağlı təkrar əsassız müraciətlər edən şəxslərə onların tələblərinin hüquqi cəhətdən əsassız olması qanunvericiliyə istinad edilməklə əsaslandırılmalıdır.

Vətəndaşların müraciət etmək prosedurları isə qanunla tənzimlənir. 2015-ci ildə qəbul edilmiş "Vətəndaşların müraciətləri haqqında" yeni Qanunda müasir dövrün tələblərinə və beynəlxalq hüququn normalarına uyğun olaraq bir çox yeni müddəalar təsbit olunmuşdur. Bu mühüm sənəd vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi, bütövlükdə vətəndaşların konstitusion hüququ və azadlıqlarının həyata keçirilməsinin inzibati prosedurlarının tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli fərmanları ilə "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası" və "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilmişdir. Həmin qaydalarda təşkilatlar tərəfindən vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq sisteminin təşkili, təhlillərin aparılması, müraciətin müxtəlif, o cümlədən elektron qaydada qəbul edilməsi, qeydiyyata alınması, cavablandırılması, eləcə də bu sahəyə nəzarətin həyata keçirilməsi xüsusiyyətləri, müraciətə baxan səlahiyyətli şəxslərin məsuliyyəti, vətəndaşların müraciətləri haqqında qanunvericiliyin tələblərinə dönmədən və ciddi şəkildə riayət edilməsi məsələləri tənzimlənmişdir.

2016-cı il 14 iyun tarixli Qanunla İnzibati Xətalar Məcəlləsinə vətəndaş müraciətləri haqqında qanunvericiliyin pozulması ilə bağlı yeni müddəa (594-1-ci maddə) əlavə olunmuşdur ki, burada da müraciətin qəbul edilməməsinə, aidiyyəti üzrə baxılması üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərilməsinə, vətəndaş qəbulunun yeni Qanunun tələblərinə uyğun təşkil edilməməsinə, müraciəti ilə bağlı vətəndaşın təqib edilməsinə görə müvafiq inzibati məsuliyyət tədbirləri müəyyən edilmişdir.

Göründüyü kimi, vətəndaşların müraciətlərinə baxılması sahəsində mükəmməl işlək mexanizm müəyyən edilmiş, dövlət orqanlarına tələbkarlıq daha da artırılmışdır.

Ölkə Prezidentinin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.

"Vətəndaşların müraciətləri haqqında" Qanun qəbul olunduqdan sonra Ədliyyə Nazirliyi üzrə Qanunun icrasına dair tədbirlər barədə 30.12.2015-ci il tarixli Əmr imzalanmış, vətəndaşların müraciətlərinə baxılması işində icra intizamının gücləndirilməsi, müraciətlərdə qaldırılan məsələlərin hərtərəfli və dolğun araşdırılması, onların həlli üzrə zəruri tədbirlərin görülməsi, müraciətlərə lakonik və aydın cavablar verilməsi, süründürməçilik və etinasızlığa, baxılma müddətinin lüzumsuz uzadılmasına yol verilməməsi, xüsusilə nəzarətdə olan müraciətlərə operativ baxılması və icrası barədə nazirliyin rəhbərliyinə mütəmadi məruzə edilməsi ilə bağlı konkret tapşırıqlar müəyyən edilmişdir.

Bununla yanaşı, ölkə Prezidentinin 2016-cı il 3 fevral tarixli fərmanları ilə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çox pilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından,

hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında, habelə bu sahədə şəffaflığın və obyektivliyin təmin edilməsi, sahibkarlıqla məşğul olan şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır.

Bununla əlaqədar Ədliyyə Nazirliyinin Apelyasiya Şurası və onun Katibliyi yaradılaraq zəruri tədbirlər görülmüş, o cümlədən Şuranın fəaliyyəti barədə nazirliyin rəsmi internet saytında ayrıca bölmə təşkil edilmiş, operativ məlumat mübadiləsi aparmaq məqsədilə Şuranın elektron poçtu yaradılmış, "Elektron hökumət" portalında olan "Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apelyasiya Şuralarında müraciətlərin elektron qəbulu sistemi"nə qoşulması təmin edilmişdir.

Beləliklə, sahibkarların nazirliyin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı Apelyasiya Şurasına müraciət etməsi üçün hər cür imkan yaradılmışdır.

Vətəndaşların dövlət orqanlarına müraciət etmək imkanlarının asanlaşdırılması istiqamətində mühüm addımlar atılır. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq əhaliyə elektron xidmətlərin göstərilməsi bu sahədə aparılan olduqca mühüm əhəmiyyətli işlərdəndir. Ölkə Prezidentinin təşəbbüsü ilə yaradılaraq Azərbaycanın brendinə çevrilmiş və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti vətəndaş məmnunluğunu doğurur.

Qeyd etmək lazımdır ki, vətəndaşların müraciətlərinə baxılması işində onların qəbulu da xüsusi önəm kəsb edir. Qəbula gələn şəxs yazılı müraciətdən fərqli olaraq probleminin həll olunması istəyini müraciətə baxan subyektə canlı şəkildə şəxsən bildirir. Bu zaman qəbul edən şəxsdən səbirli olmaq, vətəndaşı nəzakətlə sonadək dinləmək, müraciətə baxılması ilə bağlı dərhal zəruri tədbirlər görmək və ətraflı izah vermək tələb olunur.

Bu sahədə işin qanunvericiliyə uyğun təşkili məqsədilə Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların qəbulu qaydaları təkmilləşdirilmiş, "Ədliyyə orqanlarında vətəndaşların qəbulu Qaydası" yenidən işlənilərək Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli qərarı ilə təsdiq olunmuş, nazirlikdə Vətəndaşların qəbulu şöbəsi, habelə "e-hökumət" prinsiplərinə uyğun olaraq regionlarda yaşayan vətəndaşların qəbulunun asanlaşdırılması məqsədi ilə nazirlikdə və regional ədliyyə qurumlarında "virtual qəbul" məntəqələri yaradılmış, ictimai rəyin öyrənilməsi məqsədilə vətəndaşlar arasında anket sorğusunun aparılması təşkil edilmişdir.

Dövlət başçısının tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, o cümlədən ədliyyə nazirinin şəhər və rayonlarda vətəndaşların qəbulu mütəmadi xarakter almışdır. Səyyar qəbullar zamanı vətəndaşların qaldırdıqları hər bir müraciətə diqqətlə baxılır, onların hüquqları ilə bağlı zəruri izahlar verilir, araşdırma tələb edən müraciətlər barədə nazirliyin aidiyyəti məsul işçilərinə yerindəcə tapşırıqlar verilir.

Vətəndaş müraciətlərinə baxılması zamanı hüquqi maarifləndirmənin və keyfiyyətli hüquqi yardımın göstərilməsi də xüsusi önəm kəsb edir.

Nazirliyin Kollegiyasının "Ədliyyə orqanlarında vətəndaşların qəbulu işinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlər barədə" 30.06.2015-ci il tarixli Qərarının icrası çərçivəsində qəbullar zamanı xüsusən aztəminatlı əhaliyə keyfiyyətli hüquqi yardım göstərmək üçün Ədliyyə Akademiyasının nəzdində fəaliyyət göstərən "Hüquq klinikası"nın imkanlarından səmərəli istifadə olunur.

Eyni zamanda, vətəndaşların rahatlığı üçün nazirliyin rəsmi internet saytı və elektron xidmətlər bölməsi, habelə elektron poçt vasitəsilə istənilən vaxt müraciət etmək imkanı yaradılmışdır. Bununla yanaşı, antikorrupsiya tədbirləri çərçivəsində nazirlikdə "Qaynar-xətt" xidməti formalaşdırılaraq elektron qaydada və telefon vasitəsilə korrupsiya hüquqpozmaları ilə bağlı şikayətlərin dərhal qeydiyyata alınması, təxirəsalınmadan baxılaraq araşdırılması və cavablandırılması qaydaları müəyyən olunmuşdur.

Beləliklə, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlarla iş daim diqqətdə saxlanılaraq onların müraciətlərinə baxılması və qəbulu işinin təkmilləşdirilməsi, müraciət imkanlarının asanlaşdırılması, əlçatanlığın və vətəndaş məmnunluğunun təmin edilməsi üçün kompleks tədbirlər görülür.

Bütün bunlar insanlara layiqli xidmət göstərilməsinə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasına, müraciətlərə qayğı və həssaslıqla yanaşılmasına xidmət edir.



# Правовое регулирование досудебного соглашения о сотрудничестве в уголовно-процессуальном законодательстве России



***Качалова Оксана Валентиновна,***
***заведующая отделом проблем уголовного судопроизводства Российского государственного университета правосудия (г. Москва), доктор юридических наук, доцент***

***Xülasə:*** *Rusiya Dövlət Ədalət Mühakiməsi Universitetinin şöbə müdiri, hüquq elmləri doktoru, dosent Oksana Kaçalovanın məqaləsi son dövrlərdə postsovet məkanında müzakirə edilən ən aktual məsələlərdən birinə - cinayət prosessual qanunvericiliyində istintaq sövdələşməsi probleminə həsr edilmişdir.*

*Hazırda Azərbaycanda istintaq sövdələşməsi institutunun tətbiq olunması müzakirə edilən mühüm məsələlərdəndir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli, 1993 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 8.3-cü bəndində korrupsiya cinayətləri ilə əlaqədar ibtidai araşdırma çərçivəsində "istintaq sövdələşməsi" institutunun tətbiqinə dair təkliflərin hazırlanması nəzərdə tutulmuşdur.*

*Bu baxımdan, istintaq sövdələşməsi institutunun tətbiqində digər ölkələrin, o cümlədən Rusiya Federasiyasının maraqlı təcrübəsinin öyrənilməsi olduqca əhəmiyyətlidir.*

*Qeyd edilməlidir ki, Rusiya Federasiyasında bu institut 2010-cu ildən tətbiq olunur və müəyyən təcrübənin ümumiləşdirilməsinə və mənimsənilməsinə imkan yaradır.*

Институт досудебного соглашения о сотрудничестве появился в российском уголовном процессе в 2010 г. как средство противодействия организованной преступности, а также иным тяжким и особо тяжким преступлениям, совершенных организованными преступными группами и сообществами, наркопреступлений, коррупционных проявлений и т.д. [1].

В главе 40.1 УПК РФ, регламентирующей порядок заключения и реализации досудебного соглашения о сотрудничестве не был установлен перечень составов преступлений либо категорий уголовных дел, по которым возможно заключение такого соглашения либо составов преступлений, для раскрытия и расследования которых заключаются досудебные соглашения о сотрудничестве.

Следственная практика существенным образом исказила смысл данного процессуального института и необоснованно расширила сферу возможного применения. Досудебные соглашения о сотрудничестве стали заключаться по делам о преступлениях небольшой и средней тяжести (от 37 до 70% ежегодно), в том числе и по делам о злостном уклонении от уплаты алиментов, побоях, нарушении правил дорожного движения и т.д.) [2].

В российской практике применения досудебного соглашения о сотрудничестве нередкими стали ситуации, при которых главари организованных преступных сообществ заключают соглашения с целью избежать назначения пожизненного лишения свободы либо уйти от иных строгих видов наказания, и дают показания против рядовых членов преступных группировок, которых зачастую сами вовлекли в преступную деятельность. Досудебное соглашение о сотрудничестве было заключено с лидером челябинского преступного сообщества "Турбазовские" С. Чащиным (он был признан виновным в совершении целого ряда убийств при отягчающих обстоятельствах, организации преступного сообщества и т.д.); с главарем преступного сообщества "Севастопольские" Р. Саймановым и др. [3]. Представляется, что заключение досудебных соглашений о сотрудничестве с руководителями организованных сообществ возможно лишь в исключительных случая. Это могут дела о преступлениях коррупционной направленности, экономических преступлениях - в случаях, когда лицо полностью возместило причиненный ущерб, с его помощью установлено имущество, добытое в результате

преступления, случаи, когда сотрудничество со следствием выявляет преступную организацию, обладающую большей степенью общественной опасностью по сравнению с той, с руководителем которой заключается досудебное соглашение о сотрудничестве и т.п.

Не всегда можно признать обоснованным и заключение досудебных соглашений о сотрудничестве в отношении большинства членов организованной преступной группы или сообщества.

Так, например, по делу о взрыве на Центральном рынке Владикавказа в 2010 г. из 12 обвиняемых соглашения были заключены с 8. Это означает, что большинство членов преступной группы обеспечило себе гарантированное снижение наказания, изобличая друг друга в совершении одного и того же деяния. Смысл досудебного соглашения о сотрудничестве не искажается только в том случае, если у следователя есть основания полагать, что информация, предоставленная каждым из заключивших досудебное соглашение о сотрудничестве будет различной.

Первое место по количеству заключенных досудебных соглашений о сотрудничестве в России занимают преступления в сфере незаконного оборота наркотических средств. Обещая предоставить информацию о другом лице, занимающимся распространением наркотических средств, обвиняемый зачастую прекрасно осведомленный не об одном лице, занимающемся распространением наркотических средств, предоставляет следствию ограниченную информацию, которая может и не иметь практической значимости для следствия. Это же касается и ряда других уголовных дел. Так, например, по уголовному делу с обвиняемым в массовых беспорядках в колонии О. было заключено досудебное соглашение о сотрудничестве. В массовых беспорядках участвовало около 120 заключенных. При этом О., являясь организатором массовых беспорядков и призывая других заключенных к участию в них, в рамках досудебного соглашения о сотрудничестве изобличил лишь осужденного П., участвовавшего в массовых беспорядках. [4]. Полагаем, что при данных обстоятельствах досудебное соглашение не могло быть заключено, поскольку О. являлся организатором беспорядков и вовлек в участие в них большое количество осужденных и в рамках сотрудничества со следствием предоставил весьма ограниченную информацию.

Ходатайство о заключении досудебного соглашения о сотрудничестве направляется подозреваемым или обвиняемым после проведения консультаций с защитником прокурору через следователя до окончания предварительного следствия. Однако следователь может отказать в удовлетворении данного ходатайства, если не считает необходимым заключение такого соглашения. Досудебное заключение о сотрудничестве в России заключается между прокурором и обвиняемым (подозреваемым) с участием защитника (ст. 317. 3 УПК РФ). Досудебное соглашение о сотрудничестве предполагает, что лицо, его заключившее, согласно с предъявленным ему обвинением.

Ряд российских исследователей предлагают включить суд в досудебный этап производства по таким категориям дел (предлагалось утверждение досудебного соглашения исключительно судом, [5, с. 21] заключение досудебного соглашения прокурором только по решению суда, [6, с. 4-5] наделение суда полномочием утверждать заключенное соглашение, [7, с. 19-20] возможность расторжения досудебного соглашения о сотрудничестве при наличии возражений обвиняемого исключительно в судебном порядке, установление судебного контроля за заключением досудебного соглашения о сотрудничестве в порядке ст. 125 УПК РФ. Разрешение этих вопросов чревато вмешательством в тактику следствия, что не входит в компетенцию суда, кроме того, фактически навязанное следствию досудебное соглашение о сотрудничестве вряд ли станет эффективным инструментом в раскрытии и расследовании уголовного дела.

Серьезные споры и сомнения вызывает вопрос о необходимости заключения досудебного соглашения о сотрудничестве не прокурором, а следователем. С одной стороны, это не лишено определенной логики, поскольку основывается на выборе следователем тактики расследования данного преступления. С другой стороны, необходимо подходить к решению данного вопроса не столь утилитарно. Действующая система российского предварительного расследования построена таким образом, что утверждение обвинительного заключения, а по сути - формирование уголовного иска и дальнейшее поддержание государственного обвинения в суде является исключительной прерогативой прокурора. В контексте этого заключение досудебного соглашения именно прокурором, который в дальнейшем выносит представление о соблюдении его условий и поддерживает обвинение в суде, представляется весьма логичным и оправданным. Наделение следователя полномочиями по заключению досудебного соглашения о сотрудничестве приведет к дисбалансу в этой системе, дополнительным камнем преткновения во взаимоотношениях "следователь - прокурор", ухудшит ситуацию в данной сфере, услож-

нит утверждение обвинительных заключений с досудебными соглашениями о сотрудничестве, приведет к затягиванию в процессе производства по уголовным делам. Именно поэтому, на наш взгляд, заключение досудебного соглашения о сотрудничестве в рамках сложившейся системы предварительного расследования должно оставаться прерогативой прокурора.

Еще одной проблемой в данной сфере является рассмотрение выделенного уголовного дела в отношении лица, заключившего досудебное соглашение о сотрудничестве в особом порядке - в ходе судебного разбирательства фактические обстоятельства дела устанавливается весьма ограниченным способом - закон предусматривает лишь возможность проведения допроса подсудимого, исследуются характер и значение сотрудничества обвиняемого со следствием, обстоятельства, характеризующие его личность, обстоятельства, смягчающие и отягчающие наказание. Зачастую сотрудничество со следствием не заканчивается ни по окончании предварительного расследования, ни даже при вынесении приговора в отношении данного обвиняемого. Это касается расследования сложных групповых преступлений, когда лицо, заключившее досудебное соглашение о сотрудничестве, дает показания по основному уголовному делу и другим уголовным делам, участвует в иных следственных действиях и т.д.

Зачастую сотрудничество со следствием не заканчивается при вынесении приговора в отношении данного обвиняемого: он продолжает давать показания, изобличающие соучастников, участвует в иных следственных действиях и т.д. Не всегда по этой причине прокурор может подтвердить выполнение обвиняемым выполнение всех условий соглашения, а лишь констатирует тот факт, что обвиняемый активно сотрудничает со следствием. Представляется нелогичным выносить судебное решение до тех пор, пока лицом не будут окончательно выполнены все условия досудебного соглашения о сотрудничестве.

При последовательном рассмотрении связанных между собой фактическими обстоятельствами последовательно сначала в общем, а затем в сокращенном порядке, станет более ясной картина преступления, роль и степень участия в преступной деятельности каждого из соучастников, будут сведены к минимуму случаи, когда лицо, заключившее досудебное соглашение о сотрудничестве, выгораживая себя, перекладывает ответственность на соучастников, дает ложные показания, осуждается в особом порядке за менее тяжкое преступление либо за меньшие, чем имели место в действительности, роль, характер и степень участия в совершении преступления.

Анализ приговоров, вынесенных в сокращенном порядке в отношении лиц, заключивших досудебное соглашение о сотрудничестве, до рассмотрения основного уголовного дела приводит нас к выводу о нелогичности многих из них. Так, например, приговор Брянского областного суда, вынесенный в отношении Н., заключившего досудебное соглашение о сотрудничестве и обвиняемого в совершении двадцати девяти преступлений, предусмотренных ч. 2 ст. 210 УК РФ, ч. 3 ст. 30 и пп. "а", "г" ч. 3 ст. 228.1 УК РФ и ч. 3 ст. 30 и п. "а" ч. 3 ст. 228.1 УК РФ, в описательно-мотивировочной части, изложенной на 37 страницах, содержит описание преступной деятельности Н. совместно еще с 19 лицами, уголовные дела в отношении которых еще не рассматривались судом (в приговоре они именуются "лицо №1", "лицо № 2" и т.д.) [8].

Основу описательно-мотивировочной части приговора составляют факты, не исследованные и не установленные судом. При этом, вынося решение в сокращенном порядке, суд в полной мере не может убедиться в обоснованности и доказанности обвинения, поскольку не может определить ни роль, ни степень участия этих 19 лиц, а соответственно, не может точно определить и роль подсудимого в совершении групповых преступлений. Если лицо, заключившее досудебное соглашение о сотрудничестве, в последующем в суде отказывается от ранее данных показаний, а других доказательств не имеется, то остальные обвиняемые получают возможность избежать уголовной ответственности.

Раздельное рассмотрение уголовных дел в отношении соучастников преступления и лица, заключившего досудебное соглашение, нередко препятствует всесторонности и объективности принятия решения по существу. В результате этого по одним и тем же эпизодам преступной деятельности судами, рассматривающими основное и выделенное уголовное дело, зачастую принимаются разные решения в части квалификации содеянного, объема обвинения и других существенных обстоятельств. Суды нередко отмечают сложности, вызванные выделением уголовного дела, связанные с невозможностью точно определить степень согласованности действий и распределения ролей соучастников. [9]. В случаях, когда суд, рассматривая в общем порядке уголовное дело в отношении соучастников лица, заключившего досудебное соглашение о сотрудничестве, принимает иное решение в части, касающейся квалификации преступления, приговор, вынесенный в особом порядке в отношении лица, заключившего досудебное соглашение о сотрудничест-

ве, подлежит пересмотру.

Так, надзорным определением Судебной коллегии по уголовным делам Верховного Суда РФ приговор Свердловского областного суда в отношении К. в части осуждения по ч. 2 ст. 210 УК РФ был отменен, а производство по делу в этой части прекращено на основании п. 1 ч. 1 ст. 27 УПК РФ за непричастностью К. к совершению преступления. Фактическим основанием для принятия такого решения послужило вынесение Свердловским областным судом оправдательного приговора в отношении его соучастников Ш. и Л. по ч. 2 ст. 210 УК РФ, а также последующая отмена приговора в отношении П., С. и Д., в связи с чем утратило смысл само существование преступного сообщества. [10].

В ряде случаев рассмотрение выделенного уголовного дела в отношении лица, заключившего досудебное соглашение о сотрудничестве, может быть нецелесообразно ввиду различных обстоятельств (затягивание сроков рассмотрения уголовного дела в отношении данного лица, истечение предельных сроков содержания его под стражей, нежелание лица сотрудничать со следствием ввиду затягивания рассмотрения его уголовного дела и т.д.). Представляется, что в каждом конкретном случае с учетом обстоятельств уголовного дела прокурор мог бы решать, в какой момент выделенное уголовное дело будет рассматриваться судом - до либо после рассмотрения судом уголовного дела в отношении его соучастников либо лиц, в изобличении которых он принимал участие.

Вопрос о неизбежном затягивании сроков рассмотрения уголовного дела в отношении лица, заключившего досудебное соглашение о сотрудничестве, будет решаться с учетом того, насколько значимыми являются публичные интересы, обеспечение которых ведет к ограничению права обвиняемого на рассмотрение его дела в разумный срок. Согласно правовым позициям ЕСПЧ ограничения права обвиняемого на справедливое судебное разбирательство признается допустимым, если того требуют интересы правосудия [11].

Выполнение условий досудебного соглашения о сотрудничестве влечет за собой существенное снижение размера наказания. Так, при наличии смягчающего обстоятельства в виде явки с повинной, активного способствования раскрытию и расследованию преступления, изобличения и уголовного преследования других соучастников преступления, розыске имущества, добытого в результате преступления и отсутствии отягчающих обстоятельств срок или размер наказания не могут превышать половины максимального срока или размера наиболее строгого вида наказания (ч. 2 ст. 62 УК РФ); пожизненное лишение свободы или смертной казни не могут быть назначены, назначенное в этом случае наказание не может превышать двух третей от максимального срока или размера наиболее строгого вида наказания (ч. 4 ст. 62 УК РФ); может быть назначено более мягкое наказание, чем предусмотрено за данное преступление, применено условное осуждение либо лицо полностью освобождено от отбывания наказания (ч. 5 ст. 317.7 УПК РФ).

**ЛИТЕРАТУРА:**

1. Пояснительная записка Комитета Государственной Думы по гражданскому, уголовному, арбитражному и процессуальному законодательству к Проекту ФЗ "О внесении изменений в Уголовный кодекс Российской Федерации и Уголовно-процессуальный кодекс Российской Федерации" (о введении особого порядка вынесения судебного решения при заключении досудебного соглашения о сотрудничестве).
2. Сайт Судебного департамента при Верховном Суде РФ: URL: http://www.cdep.ru/index.php?id= 79&item=2883 (дата обращения 18.05. 2017).
3. Информационный юридический портал. [Электронный ресурс]: - Режим доступа: URL: http://pravo.ru/news /view/77440/(дата обращения 13.05. 2017).
4. Архив Брянской областной прокуратуры за 2015 г.
5. Шаталов А. С. Принятие судебного решения при заключении досудебного соглашения о сотрудничестве: правовая регламентация, проблемы, тенденции, перспективы //Уголовное судопроизводство. 2010. № 2.
6. Быков В.М. Новый закон о сделке обвиняемого с правосудием: критические заметки // Российский судья. 2009. № 11.
7. Конин В. В. Особый порядок рассмотрения уголовных дел: проблемы законодательства и судебной практики //Российский судья. 2010. № 3.
8. Уголовное дело № 2-43/2012 // Архив Брянского областного суда за 2012 г.
9. Справка по результатам обобщения практики применения судами Красноярского края норм главы 40 1 УПК РФ об особом порядке принятия судебного решения при заключении досудебного соглашения о сотрудничестве. Сайт Красноярского краевого суда. - Режим доступа: URL: http://kraevoy.krk.sudrf.ru/modules.php?name=docum_sud&id=151 (дата обращения 26.05. 2017).
10. Определение Судебной коллегии по уголовным делам Верховного Суда РФ от 27 февраля 2012 г. № 45-Д12-4. [Электронный ресурс]: СПС Консультант Плюс.
11. Дела Энгель и другие против Нидерландов (1976); Моннел и Моррис против Великобритании (1987); С.Н. против Швеции (2002) и др. Сайт ЕСПЧ. - Режим доступа: URL: URL:http://www.echr.ru/documents/doc/2461454/2461454.htm (дата обращения 18.05. 2017)

### "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 3, maddə 208, N 12, maddə 1019; 2007, N 12, maddə 1194; 2008, N 4, maddə 254, N 6, maddə 464, N 7, maddə 602, N 8, maddələr 699, 710; 2009, N 6, maddələr 395, 399, N 11, maddələr 877, 879; 2010, N 7, maddə 579; 2011, N 4, maddə 267, N 6, maddə 465, N 7, maddə 597, N 12, maddə 1109; 2012, N 11, maddələr 1037, 1044; 2013, N 3, maddə 223, N 5, maddə 485, N 6, maddələr 608, 614; 2015, N 5, maddə 494) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.8. fərdi hesabın sığorta hissəsi - əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan, sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90 faizinin və xüsusi hesabdakı vəsaitin qeydə alındığı subhesabdır;";

1.2. 1.0.9-cu maddədən "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq" sözləri çıxarılsın və həmin maddədə "məcburi dövlət" sözləri "könüllü" sözü ilə əvəz edilsin;

1.3. 1.0.11-ci maddə ləğv edilsin;

1.4. 1.0.12-ci maddədən "əmək pensiyalarının ikinci pilləsi olmaqla," sözləri çıxarılsın;

1.5. 1.0.13-cü maddədən "əmək pensiyalarının üçüncü pilləsi olmaqla," sözləri çıxarılsın;

1.6. 1.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.16-cı, 1.0.17-ci və 1.0.18-ci maddələr əlavə edilsin:

"1.0.16. idarəetmə xərcləri - məcburi dövlət sosial sığortası, fərdi uçot, əmək pensiyası və digər sosial ödənişlər sisteminin idarə edilməsinə yönəldilən və yuxarı həddi sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2,5 faizi məbləğində müəyyənləşdirilən xərclərdir. Bu xərclərin təsdiq edilən məbləğdən artıq olan hissəsi və istifadə edilməmiş qalığı sosial sığorta ehtiyatına aid edilir;

1.0.17. sosial sığorta ehtiyatı - sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə qalan məbləğdə formalaşdırılan, əmək pensiyalarının bu Qanunda müəyyən olunmuş əmək pensiyasının minimum məbləğinə çatdırılması, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər və digər ödəmələr üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilən, istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan və ilin sonuna istifadə edilməmiş qalığı növbəti ilə keçən vəsaitdir;

1.0.18. xüsusi hesab - əmək pensiyasının minimum məbləğində və ya daha yuxarı məbləğdə pensiya təminatının formalaşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada sığortaolunanlar üzrə ödənilən əlavə vəsaitlərin mədaxil olunduğu hesabdır.";

1.7. 4.2.1-ci və 4.3.1-ci maddələr ləğv edilsin;

1.8. 4.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"4.4. Ailə başçısını itirməyə görə əmək pensiyası sığorta hissəsindən ibarətdir.";

1.9. 6.1-ci maddə ləğv edilsin;

1.10. 6.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"6.2. Əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə bu Qanunun 19-cu və 20-ci maddələrində nəzərdə tutulan əlavələr dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir. Qeyd olunan mənbələrin birində vəsait çatışmazlığı olduqda, müvafiq xərclər digər mənbə hesabına maliyyələşdirilir.";

1.11. Aşağıdakı məzmunda 6-1-ci maddə əlavə edilsin:

"Maddə 6-1. Əmək pensiyasının minimum məbləği

Bu Qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2017-ci il 1 iyul tarixindən 110 manat məbləğində müəyyən olunur və sonradan həmin məbləğ bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilir.";

1.12. 7-ci maddənin birinci hissəsində "62" rəqəmləri "63" rəqəmləri ilə, "57" rəqəmləri "60" rəqəmləri ilə, "azı 12" sözləri "fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25" sözləri ilə, mötərizədə "bu Qanunun qüvvəyə mindiyi günədək" sözləri "2017-ci il iyulun 1-dək" sözləri ilə əvəz edilsin;

1.13. 7-ci maddədə "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Qeyd. Bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.";

1.14. 8.1-ci və 8.2-ci maddələrdən "və azı 10 il sığorta stajı olan" sözləri çıxarılsın və həmin maddələrdə "olaraq müəyyən olunmuş" sözləri "şərtlər daxilində" sözləri ilə əvəz edilsin;

1.15. 8.3-cü maddədən "azı 10 il sığorta stajı olduqda" sözləri çıxarılsın və həmin maddədə "olaraq müəyyən olunmuş" sözləri "şərtlər daxilində" sözləri ilə əvəz edilsin;

1.16. 9.1-ci maddədə "57" rəqəmləri "60" rəqəmləri ilə, "52" rəqəmləri "55" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "çalışmışlarsa" sözündən sonra "və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə" sözləri əlavə edilsin;

1.17. 9.3-cü maddəyə "15 il sığorta stajı olduqda" sözlərindən sonra "və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə" sözləri əlavə edilsin;

1.18. 9.4-cü maddəyə "şəxslərin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş prokurorluq işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.19. 9.4.1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin;

1.20. 9.4.2-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "17 il 6 ayını" sözləri ilə əvəz edilsin;

1.21. 9.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"9.6. Hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldıqdan sonra təyin olunur. Əmək pensiyası təyin olunduqdan sonra hərbi xidmətini davam etdirən əmək pensiyaçılarının pensiyası sonuncu təminat xərcliyinə görə yenidən hesablanmır. Bu kateqoriyadan olan şəxslərin əmək pensiyası yalnız fərdi hesablarında qeydə alınmış sığorta pensiya kapitalına görə yenidən hesablana bilər.";

1.22. 9.7.1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.23. 9.7.2-ci maddənin ikinci abzasında "55" rəqəmləri "60" rəqəmləri ilə, "25" rəqəmləri "30" rəqəmləri ilə, üçüncü abzasında "50" rəqəmləri "55" rəqəmləri ilə, "20" rəqəmləri "25" rəqəmləri ilə, "10 təqvim ilini" sözləri "12 il 6 ayını" sözləri ilə əvəz edilsin;

1.24. 9.7-1-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçilərinin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş miqrasiya işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.25. 9.7-2-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin və həmin maddəyə "işçilərin" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş fövqəladə hallar orqanlarının işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.26. 10.1-ci maddə ləğv edilsin;

1.27. 10.2-ci maddəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"Bu Qanuna uyğun olaraq təyin edilmiş yaşa görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda,

həmin məbləğə çatdırılmaqla ödənilir.";

1.28. 10.4-cü maddənin ikinci abzasından "BH+" sözləri çıxarılsın və dördüncü abzası ləğv edilsin;

1.29. 12.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.1. Əlilliyə görə əmək pensiyası I qrup əlillərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III qrup əlillərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə, bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir.";

1.30. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.2. Hərbi qulluqçulara, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərə (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində üz verdikdə təyin edilir.";

1.31. 13.1-ci maddə ləğv edilsin;

1.32. 13.2-ci maddədə "184-ə" sözü "192-yə" sözü ilə əvəz edilsin;

1.33. 13.3-cü maddəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"I qrup əlillərə təyin olunmuş əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

1.34. Aşağıdakı məzmunda 13.3-1-ci maddə əlavə edilsin:

"13.3-1. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərin fərdi hesabı vardırsa və hesablanan əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğindən azdırsa həmin məbləğə çatdırılmaqla, fərdi hesabı olmadıqda isə əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin məbləği əmək pensiyasının minimum məbləğində ödənilir. Bu kateqoriyadan olan şəxslərin bu Qanunun 12.1-ci və 13.3-cü maddələrindəki şərtlər nəzərə alınmaqla fərdi hesabının sığorta hissəsindəki pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən böyük məbləğdə əmək pensiyasının hesablanmasına əsas verdikdə, pensiyanın sığorta hissəsi həmin məbləğdə müəyyənləşdirilir.";

1.35. 13.5-ci maddənin ikinci abzasından "BH+" sözləri çıxarılsın və dördüncü abzası ləğv edilsin;

1.36. 17.2-ci maddənin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçuların, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından I qrup müharibə əlili olan şəxslərin (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyaları hərbi qulluqçunun xidmət müddətindən asılı olmayaraq təyin edilir. Bu zaman ailə başçısını itirməyə görə əmək pensiyası ailə başçısı xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, amma xidmət etdiyi dövrdə aldığı xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində vəfat edibsə təyin olunur.";

1.37. 18.1-ci maddə ləğv edilsin;

1.38. 18.2-ci maddədə "13.3-cü maddəsində" sözləri "13.3-cü və 13.3-1-ci maddələrində" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əmək qabiliyyəti olmayan ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyalarının ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.";

1.39. 18.4-cü maddə ləğv edilsin;

1.40. 19-cu maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 19. Əmək pensiyasının sığorta hissəsinə əlavələr

19.1. Əmək pensiyasının sığorta hissəsinə aşağıdakı əlavələr hesablanır:

19.1.1. Azərbaycanın Milli Qəhrəmanlarının ailə üzvlərinə (bu Qanunun 14-16-cı maddələrinə uyğun olaraq) 110 manat, şəhidlərin ailə üzvlərinə (bu Qanunun 14-16-cı maddələrinə uyğun olaraq) 93,5 manat məbləğində;

19.1.2. I qrup gözdən əlillərə 110 manat, digər I qrup əlillərə 22 manat məbləğində (2017-ci ilin 1 iyul tarixindən sonra təyin edilən pensiyalara tətbiq olunur);

19.1.3. öhdəsində əmək qabiliyyəti olmayan ailə üzvləri olan işləməyən I və II qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə, həmçinin öhdəsində ailə başçısını itirməyə görə pensiya ilə təmin edilməli şəxslərə aid edilən əmək qabiliyyətsiz ailə üzvləri olan işləməyən hərbi qulluqçular sırasından olan əmək pensiyaçılarına ailənin əmək qabiliyyəti olmayan hər üzvü üçün 5,5 manat məbləğində;

19.1.4. I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün 11 manat məbləğində;

19.1.5. siyasi repressiyalara məruz qalaraq sonradan bəraət qazanmış şəxslərə 11 manat məbləğində;

19.1.6. döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara 11 manat məbləğində;

19.1.7. yaşa görə əmək pensiyası alan müharibə əlillərinə (Böyük Vətən müharibəsi əlilləri istisna olmaqla) və müharibə iştirakçıları sırasından olan əlillərə:

19.1.7.1. I qrup əlillərə 110 manat məbləğində;

19.1.7.2. II qrup əlillərə 77 manat məbləğində;

19.1.7.3. III qrup əlillərə 55 manat məbləğində;

19.1.8. Böyük Vətən müharibəsi iştirakçıları və əlillərinə:

19.1.8.1. I qrup əlillərə 154 manat məbləğində;

19.1.8.2. II qrup əlillərə 121 manat məbləğində;

19.1.8.3. III qrup əlillərə və əlil olmayan müharibə iştirakçılarına 99 manat məbləğində.

19.2. Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi-tədqiqat və ya təhsil müəssisələrində azı 25 il çalışmış elmi dərəcəsi olan işləməyən əmək pensiyaçılarının (bu Qanunun 20-ci maddəsinə əsasən qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçıları istisna olmaqla) pensiyalarının sığorta hissəsinə elmlər doktoru elmi dərəcəsinə görə 200 manat, fəlsəfə doktoru elmi dərəcəsinə görə 120 manat məbləğində əlavə hesablanır.

19.3. Bu Qanunun 19.1.6-19.1.8-si maddələrində nəzərdə tutulmuş əlavələrdən əmək pensiyaçısına yalnız biri - daha yüksəyi verilir.";

1.41. 20.1.1-ci maddədə "əlil olmuş" sözləri "I qrup əlil olmuş və deputat kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan" sözləri ilə əvəz edilsin;

1.42. 20.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"20.1.3. əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan sabiq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri;";

1.43. 20.1.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.1.3-1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü və sabiq üzvü, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının üzvü və sabiq üzvü vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvləri;";

1.44. 20.1.4-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

1.45. 20.1.5-1-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş prokurorluq işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.46. 20.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"20.1.6. əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan sabiq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman);";

1.47. Aşağıdakı məzmunda 20.1.6-1-ci maddə əlavə edilsin:

"20.1.6-1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) və sabiq müvəkkili (ombudsman) vəfat etdikdə, onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvləri;";

1.48. 20.1.7-ci maddənin əvvəlinə "əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş" sözləri əlavə edilsin;

1.49. 20.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"20.1.9. əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək I qrup əlil olmuş sabiq Azərbaycan Respublikasının Baş naziri və Baş nazirinin müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və Baş nazirinin müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və rəhbərinin müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və rəhbərinin müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı), Milli Televiziya və Radio Şurasının, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvləri;";

1.50. 20.1.12-ci maddəyə "qulluqçular" sözündən sonra "(müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.51. 20.1.13-cü maddəyə "şəxslər" sözündən sonra "(müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.52. 20.1.14-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.53. 20.1.16-cı maddədə "əlil olmuş" sözləri "I qrup əlil olmuş və Azərbaycan Respublikası Hesablama Palatasının üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan Azərbaycan Respublikası" sözləri ilə əvəz edilsin;

1.54. 20.1.18-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş miqrasiya orqanları işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.55. 20.1.20-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin və həmin maddəyə "işçiləri" sözündən sonra "(xüsusi rütbələrdən məhrum edilmiş fövqəladə hallar orqanlarının işçiləri istisna olmaqla)" sözləri əlavə edilsin;

1.56. 20.2-ci maddəyə "əmək pensiyasına" sözlərindən sonra "səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

1.57. 20.3-cü maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

1.58. 20.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"20.4. Bu Qanunun 20.1.2-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş deputatın almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

1.59. 20.5-ci maddə ləğv edilsin;

1.60. 20.6-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.6-1. Bu Qanunun 20.1.3-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvünün almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

1.61. 20.7-ci maddədə "əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla" sözləri "əlavələr hakim vəzifəsindəki fəaliyyətin son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki əməkhaqqının orta aylıq məbləğindən, əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla, aşağıdakı qaydada müəyyən edilir" sözləri ilə əvəz edilsin;

1.62. 20.7.1-ci və 20.7.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.7.1. 15 il hakim işləmiş sabiq hakimlərə - hakim vəzifəsində aldıqları orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

20.7.2. 15 ildən yuxarı hakim işləmiş sabiq hakimlərə - hakim vəzifəsində aldıqları orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı hakimlik stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.63. 20.7.3-cü maddə ləğv edilsin;

1.64. 20.8.1-ci və 20.8.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.8.1. prokurorluq orqanlarında 15 il qulluq etmiş prokurorluq işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

20.8.2. prokurorluq orqanlarında 15 ildən yuxarı qulluq etmiş prokurorluq işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı prokurorluq işçisi stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.65. 20.8.3-cü maddə ləğv edilsin;

1.66. 20.9-cu maddədə "vəzifə maaşının" sözləri

"əməkhaqqının" sözləri ilə əvəz edilsin;

1.67. Aşağıdakı məzmunda 20.9-1-ci maddə əlavə edilsin:

"20.9-1. Bu Qanunun 20.1.6-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

1.68. 20.10-cu maddədə "20.1.1-20.1.2-ci maddələrində" sözləri "20.1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.69. 20.11.1-ci və 20.11.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.11.1. dövlət qulluğu vəzifəsində 15 il qulluq stajı olan şəxsə - dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında;

20.11.2. dövlət qulluğu vəzifəsində 15 ildən yuxarı qulluq stajı olan şəxsə - dövlət məvacibinin orta aylıq məbləğinin 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün dövlət məvacibinin orta aylıq məbləğinin 3 faizi miqdarında əlavə olunmaqla, lakin dövlət məvacibinin orta aylıq məbləğinin 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.70. 20.11.3-cü maddə ləğv edilsin;

1.71. 20.14.1-ci maddədə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin və "3 faizi" sözləri "2 faizi (müvafiq icra hakimiyyəti orqanı sistemində xidmət edən şəxslər üzrə isə - 3 faizi)" sözləri ilə əvəz edilsin;

1.72. 20.14.2-ci maddəyə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

1.73. 20.14.3-cü maddəyə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

1.74. 20.14.4-cü maddədə "hər ili" sözlərindən sonra "(il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin və "3 faizi" sözləri "2 faizi (müvafiq icra hakimiyyəti orqanı sistemində xidmət edən şəxslər üzrə isə - 3 faizi)" sözləri ilə əvəz edilsin;

1.75. 20.17.1-ci maddəyə "məbləğində" sözündən sonra "(ailəyə düşən ümumi məbləğ ailə başçısının təminat xərcliyinin 80 faizindən az olduqda həmin məbləğə çatdırılmaqla)" sözləri əlavə edilsin;

1.76. 20.17.2-ci maddəyə "miqdarı ilə" sözlərindən sonra "(ailəyə düşən ümumi məbləğ ailə başçısının təminat xərcliyinin 80 faizindən az olduqda həmin məbləğə çatdırılmaqla)" sözləri əlavə edilsin;

1.77. 20.19.1-ci və 20.19.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.19.1. ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il qulluq etmiş ədliyyə işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

20.19.2. ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı qulluq etmiş ədliyyə işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.78. 20.19.3-cü maddə ləğv edilsin;

1.79. 20.21-ci maddəyə "əmək pensiyasına" sözlərindən sonra "səlahiyyət müddətində tam fəaliyyət dövrünə görə (fəaliyyət dövrü tam olmadıqda isə natamam fəaliyyət dövründəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla)" sözləri əlavə edilsin;

1.80. 20.22-ci maddədə "əlil" sözü "I qrup əlil" sözləri ilə əvəz edilsin;

1.81. 20.23-cü maddə aşağıdakı redaksiyada verilsin:

"20.23. Bu Qanunun 20.1.17-ci maddəsində nəzərdə tutulmuş şəxslərə vəfat etmiş Azərbaycan Respublikası Hesablama Palatasının üzvünün almalı olduğu və ya pensiyaçı kimi aldığı əmək pensiyası və əmək pensiyasına əlavənin 80 faizi miqdarının ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanunla təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər əmək pensiyasına əlavə ödənilir.";

1.82. 20.24-cü maddə ləğv edilsin;

1.83. 20.25-ci maddədə "20.1.16 və 20.1.17-ci maddələrində" sözləri "20.1.16-cı maddəsində" sözləri ilə əvəz edilsin;

1.84. 20.26.1-ci və 20.26.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.26.1. miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il qulluq etmiş miqrasiya orqanları işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

20.26.2. miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı qulluq etmiş miqrasiya orqanları işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı qulluq stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.85. 20.26.3-cü maddə ləğv edilsin;

1.86. 20.28.1-ci və 20.28.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"20.28.1. fövqəladə hallar orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 il xidmət keçmiş fövqəladə hallar orqanları işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında;

20.28.2. fövqəladə hallar orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə 15 ildən yuxarı xidmət keçmiş fövqəladə hallar orqanları işçilərinə - orta aylıq əməkhaqqının 50 faizi miqdarında və 15 ildən yuxarı xidmət stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün həmin orta aylıq əməkhaqqının 3 faizi miqdarında əlavə olunmaqla, lakin həmin orta aylıq əməkhaqqının 80 faizi miqdarından çox olmamaq şərti ilə müəyyən olunan məbləğlə bu Qanunla təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər əlavə ödənilir.";

1.87. 20.28.3-cü maddə ləğv edilsin;

1.88. 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 26. 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının yenidən hesablanması

26.1. 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının baza və sığorta hissəsinin cəmi məbləği dəyişdirilmədən əmək pensiyasının sığorta hissəsinə şərti çevrilməsi aparılır.

26.2. 2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyasının baza hissəsinə əlavələr dəyişdirilmədən bu Qanunun 19-cu maddəsinə uyğun əmək pensiyasının sığorta hissəsinə əlavələr kimi nəzərə alınır.

26.3. 2017-ci il iyulun 1-dək bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərə təyin edilmiş əmək pensiyasının ümumi məbləği 2017-ci il yanvarın 1-i tarixinə azaldılmamaqla ödənilir. Həmin şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavələrin bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilmə və sonrakı artımlar nəzərə alınmaqla yenidən hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

1.89. 27-ci maddənin adında "Qanunun qüvvəyə mindiyi günədək qazanılmış" sözləri "Qazanılmış" sözü ilə əvəz edilsin;

1.90. 27.1-ci maddənin birinci cümləsində "Bu Qanunun qüvvəyə mindiyi günədək sığortaolunanların" sözləri "Sığortaolunanların (əmək pensiyası təyin olunmuş şəxslər istisna olmaqla) 2006-cı il yanvarın 1-dək" sözləri ilə, ikinci cümləsində "170" rəqəmi "306" rəqəmi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Sığortaolunanların, o cümlədən işləyən əmək pensiyaçılarının 2006-cı il 1 iyul tarixindən 2017-ci il 1 iyul tarixinədək olan dövr üzrə fərdi hesabının sığorta hissəsində toplanan və istifadə olunmamış (əmək pensiyasının sığorta hissəsinin hesablanmasında nəzərə alınmamış) pensiya kapitalı 80% artırılmaqla, 2017-ci il 1 iyul tarixinə fərdi hesabın sığorta hissəsində qeydə alınır.";

1.91. 27.2-ci və 27.3-cü maddələr ləğv edilsin.

1.92. 29-cu maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 29. Əmək pensiyalarının indeksləşdirilməsi

29.1. Əmək pensiyasının sığorta hissəsi və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir.

29.2. 2017-ci il iyulun 1-dən əmək pensiyasına çıxmış bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasının sığorta hissəsi bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq artırıldıqda və ya yenidən hesablandıqda, qulluq stajına görə əmək pensiyasına əlavələrin məbləği həmin artımlar qədər azaldılmaqla yenidən hesablanır. Həmin şəxslərin tutmuş olduqları

vəzifələr üzrə aylıq əməkhaqqı (əməkhaqqı, dövlət məvacibi, təminat xərcliyi) sonradan artırıldıqda, bu artımlar nəzərə alınmaqla, qulluq stajına görə əmək pensiyasına əlavələr yenidən hesablanır.

29.3. Əmək pensiyasının indeksləşdirilməsi bu Qanunun 6-cı maddəsi ilə müəyyən edilmiş əmək pensiyasının ödənişinin maliyyə mənbələrinə uyğun olaraq müvafiq qaydada nəzərdə tutulmuş vəsaitlər dairəsində müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.";

1.93. 31.1-ci maddədən "heç bir müddət məhdudiyyəti olmadan" sözləri çıxarılsın;

1.94. 32.1-ci maddədən "əmək pensiyası hüququnun yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla" sözləri çıxarılsın;

1.95. Aşağıdakı məzmunda 32.1-1-ci maddə əlavə edilsin:

"32.1-1. Əmək pensiyaları onu almaq hüququ yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla və müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə, bu maddədə müəyyən edilmiş müddətlərə təyin edilir.";

1.96. 32.2-ci maddədən "əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun müəyyən olunduğu gündən" və "bütün" və "və ya sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

1.97. 32.3-cü maddədən "ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən" sözləri çıxarılsın;

1.98. 37.3.1-ci maddənin birinci cümləsindən "baza və" sözləri çıxarılsın, ikinci cümləsinə "keçdikdə" sözündən sonra ", yaxud pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox işlədikdə" sözləri və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

". Sonrakı belə hesablamalar bu maddədə göstərilən şərt nəzərə alınmaqla hər növbəti 6 ildən bir həyata keçirilir";

1.99. 37.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"37.3.2. əlilliyə görə əmək pensiyasının pensiya təyin olunan günədək qazanılmış məbləği tam ödənilir. Əlilliyə görə pensiya təyin edilmiş şəxs işləməkdə davam edərsə, onun pensiya təyin olunduqdan işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi tarixədək olan dövr üzrə toplanan pensiya kapitalına və həmin kateqoriyaya keçdiyi tarixdəki yaşına müvafiq tələb olunan sığorta stajına əsasən bu Qanunun 13-cü maddəsinə uyğun olaraq əmək pensiyasının sığorta hissəsi yenidən hesablanır;";

1.100. 37.3.4-cü maddənin birinci cümləsində "20.1.1-20.1.10-cu və 20.1.14-cü-20.1.21-ci" sözləri "20.1.1-20.1.21-ci" sözləri ilə əvəz edilsin və həmin cümlədən ", digər hallarda isə tam məbləğdə" sözləri çıxarılsın, ikinci cümləsində birinci mötərizədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin, ikinci mötərizədən "20.1.3-1-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözləri çıxarılsın və həmin mötərizəyə "20.1.9-cu maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözlərindən sonra "20.1.11-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə, 20.1.12-ci maddəsində göstərilən şəxslər həmin maddədə sadalanan vəzifələrdə," sözləri əlavə edilsin;

1.101. 37.3.5-ci maddə ləğv edilsin;

1.102. 37.3-cü maddənin sonuna aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd. 2017-ci il iyulun 1-dək "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş bu Qanunun 20.1.11-20.1.13-cü maddələrində nəzərdə tutulmuş şəxslərə həmin tarixədək qüvvədə olmuş "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.5-ci maddəsinin müddəaları tətbiq olunur.";

1.103. 37.7-ci maddədə "müddətindən asılı olmayaraq" sözləri "bu Qanunun 32.1-1-ci maddəsində göstərilən şərt nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin;

1.104. 42.2-ci maddədə "yaşa görə əmək pensiyasının baza hissəsinin" sözləri "əmək pensiyasının minimum məbləğinin" sözləri ilə əvəz edilsin.

1.105. 43.2-ci maddə ləğv edilsin;

1.106. 44-cü maddə ləğv edilsin;

1.107. 45-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 9-cu maddəsinə əsasən yaşa görə əmək pensiyası təyin olunan şəxslərin əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddəti aylarının sayı güzəştli şərtlə pensiyaya çıxma yaşı ilə bu Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş pensiya yaşı arasındakı ayların sayı qədər artırılır.".

Maddə 2. Bu Qanun 2017-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 mart 2017-ci il*

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, II kitab, maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12, I kitab, maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 314-1.1-ci maddənin sanksiyasında "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

2. 314-2.1-ci maddə üzrə:

2.1. dispozisiyada "vəzifəli şəxs tərəfindən" sözlərindən sonra "torpaq sahələrini tikinti üçün ayırma," sözləri əlavə edilsin;

2.2. sanksiyada "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

3. 314-2.2-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri və ya" sözləri çıxarılsın və "iki ildən dörd" sözləri "üç ildən beş" sözləri ilə əvəz edilsin.

4. 314-2.3-cü maddənin sanksiyasında "dörd" sözü "beş" sözü ilə əvəz edilsin.

5. 314-3.1-ci maddənin sanksiyasında "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

6. 314-3.2-ci maddənin sanksiyasında "iki ildən dörd" sözləri "üç ildən beş" sözləri ilə əvəz edilsin.

7. 314-3.3-cü maddənin sanksiyasında "dörd ildən altı" sözləri "beş ildən yeddi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 aprel 2017-ci il*

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, I kitab, maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 9, maddə 1559, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 509-VQD nömrəli və 14 fevral tarixli 529-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "443.1," rəqəmlərindən sonra "445-1," rəqəmləri əlavə edilsin.
2. 54.2-ci maddəyə "410.3," rəqəmlərindən sonra "445-1," rəqəmləri əlavə edilsin.
3. Aşağıdakı məzmunda 445-1-ci maddə əlavə edilsin:

"Maddə 445-1. Dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması

445-1.1 Satınalma metodlarının tətbiqi şərtlərinin pozulmasına, yəni:

445-1.1.1. satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərinin xərclənməsinə;

445-1.1.2. satınalan təşkilat tərəfindən malların (işlərin və xidmətlərin) satın alınmasının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə ilə həyata keçirilməsinə;

445-1.1.3. satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasının ayrı-ayrı müqavilələrə bölünməsinə;

445-1.1.4. satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilməsinə;

445-1.1.5. satınalma prosedurları zamanı satınalan təşkilatın təmsilçisi, məsləhətçisi və satınalmalarla əlaqədar digər vəzifələrin icraçısı barədə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə -

vəzifəli şəxslər üç min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əsaslar olmadan satınalan təşkilat tərəfindən tender təklifinin kənarlaşdırılmasına və ya həmin Qanunun tələblərinin pozulması ilə tender təklifinin qalib elan edilməsinə görə -

vəzifəli şəxslər üç min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.3. Malgöndərənlərin (podratçıların) ixtisası ilə bağlı müəyyən edilmiş tələblərin pozulmasına, yəni:

445-1.3.1. satınalan təşkilat tərəfindən malgöndərənin (podratçının) ixtisasına dair "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmayan tələblərin irəli sürülməsinə;

445-1.3.2. ixtisas göstəriciləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş meyarlara uyğun gəlməyən malgöndərənə (podratçıya) satınalan təşkilat tərəfindən dəvətlərin göndərilməsi və ya bu təşkilatlarla müqavilələrin bağlanılmasına görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

445-1.4. Satınalmaların təşkili və tender prosedurları ilə bağlı qaydaların pozulmasına, yəni:

445-1.4.1. satınalan təşkilat tərəfindən tender elanının (dəvətin) məzmununun və tenderin əsas şərtlər toplusunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib edilməməsinə;

445-1.4.2. dövlət satınalmaları üzrə tenderlər, təkliflər sorğusu və kotirovka sorğusu barədə elanlar və onların nəticələri, habelə tender nəticəsində bağlanılmış satınalma müqaviləsi barədə məlumatların "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətlərdə dövlət satınalmalarının rəsmi internet saytında yerləşdirilməməsinə və ya yanlış məlumatların yerləşdirilməsinə;

445-1.4.3. satınalmalarda iddiaçı kimi çıxış edən malgöndərəndən (podratçıdan) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada maliyyə vəziyyəti barədə sənədlərin və tender təklifinin təminatının satınalan təşkilat tərəfindən alınmamasına;

445-1.4.4. satınalan təşkilat tərəfindən tender və xidmət təkliflərinin qiymətləndirilməsi və müqayisəsi zamanı tenderin əsas şərtlər toplusunda və xidmət təklifləri sorğusunda nəzərdə tutulmuş tələblərə cavab verən yerli mallar (işlər və ya xidmətlər) üzrə tender və ya xidmət təkliflərinin xeyrinə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun güzəştli düzəlişin edilməməsinə;

445-1.4.5. satın alınacaq malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətinin tender zərflərinin açıldığı günədək satınalan təşkilat tərəfindən məxfi saxlanılmamasına görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

445-1.5. Malgöndərən (podratçı) tərəfindən dövlət satınalma prosedurlarında iştirak üçün satınalan təşkilata maliyyə vəziyyəti barədə yanlış məlumatın təqdim edilməsinə görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

Qeyd:

1. Bu Məcəllənin 445-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

2. Bu Məcəllənin 445-1-ci maddəsində "satınalan təşkilat" dedikdə, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müəssisə və təşkilatlar başa düşülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 aprel 2017-ci il*

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, II kitab, maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12, I kitab, maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560,

562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 308-2-ci maddə əlavə edilsin:

"Maddə 308-2. Satınalma prosedurları keçirilmədən dövlət vəsaitlərini xərcləmə və ya dövlət satınalmalarını qanunsuz keçirmə

308-2.1. Satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən bağlanılmış müqavilələr əsasında dövlət vəsaitlərini xərcləmə və ya malların (işlərin) satın alınmasını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə həyata keçirilməli olduğu halda, digər satınalma metodlarından qanunsuz istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.2. Satınalan təşkilat tərəfindən hər hansı digər satınalma metodlarından istifadə etmək üçün məbləğ məhdudiyyətini aradan qaldırmaq məqsədi ilə bir büdcə ili ərzində müvafiq xərc maddəsində nəzərdə tutulmuş vəsait hesabına malların (işlərin və xidmətlərin) satın alınmasını ayrı-ayrı müqavilələrə bölmə, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.3. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan malgöndərənlərin (podratçıların) həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol vermə, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.4. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində "xeyli miqdar" dedikdə, əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, 308-2.4-cü maddəsində "külli miqdar" dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 308-2.1-ci, 308-2.2-ci və 308-2.3-cü maddələrində "satınalan təşkilat" dedikdə, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan müəssisə və təşkilatlar başa düşülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 aprel 2017-ci il*

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.0.9-1-ci maddə əlavə edilsin:

"2.0.9-1. publik hüquqi şəxs - "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu cür müəyyən edilmiş qurumdur;".

2. 2.0.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.0.14-cü maddə əlavə edilsin:

"2.0.14. qanuni təmsilçi - nizamnaməsinə (əsasnaməsinə) müvafiq olaraq qurumu təmsil etmək səlahiyyətinə malik olan şəxs və ya şəxslər.".

3. 4-cü maddə üzrə:

3.1. 4.1-ci maddənin ikinci cümləsinə "təşkilatları," sözündən sonra "publik hüquqi şəxslər," sözləri əlavə edilsin;

3.2. 4.3-cü maddəyə "şəxslərinin" sözündən sonra ", publik hüquqi şəxslərin" sözləri əlavə edilsin.

4. Aşağıdakı məzmunda 5.3.2-1-ci maddə əlavə edilsin:

"5.3.2-1. təsisçi dövlət olduqda - təsisetmə səlahiyyəti verilmiş dövlət orqanının adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (olduğu halda), təsisçi bələdiyyə olduqda - bələdiyyənin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;".

5. 5.4.1-ci maddəyə birinci halda "tərəfindən" sözündən sonra ", publik hüquqi şəxslərin isə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin.

6. Aşağıdakı məzmunda 8-1-ci maddə əlavə edilsin:

"Maddə 8-1. Publik hüquqi şəxsin dövlət qeydiyyatına alınması qaydası

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən publik hüquqi şəxsin dövlət qeydiyyatına alınması həmin publik hüquqi şəxsin nizamnaməsinin təsdiq edilməsi haqqında müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin hüquqi aktı qüvvəyə mindikdən sonra bu məqsədlə səlahiyyət verilmiş şəxsin müraciəti əsasında 2 iş günündən gec olmayaraq həyata keçirilməlidir.".

7. Aşağıdakı məzmunda 9.2-1-ci və 9.2-2-ci maddələr əlavə edilsin:

"9.2-1. Bu Qanunun 9.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş hərəkətlərin edilməsi tələb olunmadan kommersiya qurumları və publik hüquqi şəxslər üzrə aşağıdakı məlumatlar birbaşa müvafiq icra hakimiyyəti orqanı tərəfindən əldə edilərək qeydiyyata alınır:

9.2-1.1 müvafiq icra hakimiyyəti orqanının aktları

ilə təsis sənədlərində və qeydə alınmış faktlarda edilmiş dəyişikliklər;

9.2-1.2. qeydə alınmış faktlarda şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərdəki məlumatlarda dəyişikliklər.

9.2-2. Bu Qanunun 9.2-1.1-ci maddəsində qeyd edilən məlumat müvafiq icra hakimiyyəti orqanının aktları əsasında, 9.2-1.2-ci maddəsində qeyd edilən məlumat isə müvafiq icra hakimiyyəti orqanından onlayn rejimdə əldə edilir və 5 gün müddətində qeydiyyata alınır.".

8. 9.3-cü maddənin birinci cümləsində "Hüquqi" sözü "Bu Qanunun 9.2-1.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, hüquqi" sözləri ilə əvəz edilsin.

9. 12.11-ci maddədə ", dövlət reyestr kitabının, qeyri-kommersiya qurumları üçün dövlət qeydiyyatı haqqında şəhadətnamənin və dövlət reyestrindən çıxarışın formaları və ərizənin" sözləri "və dövlət reyestr kitabının" sözləri ilə əvəz edilsin.

10. 12.12-ci maddədə "Kommersiya qurumları üçün dövlət" sözləri "Dövlət" sözü ilə əvəz edilsin və həmin maddədən "(o cümlədən elektron ərizənin)" və "və onun internet səhifəsində yerləşdirilir" sözləri çıxarılsın.

11. 13.3-cü maddədə "Dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxsə, xarici kommersiya" sözləri "Müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmış hüquqi şəxsə, xarici" sözləri ilə əvəz edilsin və həmin maddədən "sahibkarlıq fəaliyyəti subyektləri üçün Azərbaycan Respublikasında vahid kod olan" sözləri çıxarılsın.

12. 14-cü maddə üzrə:

12.1. 14.1.5-ci maddəyə "qurumları" sözündən sonra "və publik hüquqi şəxslər" sözləri əlavə edilsin;

12.2. 14.1.6-cı maddəyə "haqqında" sözündən sonra ", təsisçi dövlət və ya bələdiyyə olduqda, bu Qanunun 5.3.2-1-ci maddəsində qeyd edilən" sözləri əlavə edilsin;

12.3. aşağıdakı məzmunda 14.2.3-1-ci maddə əlavə edilsin:

"14.2.3-1. publik hüquqi şəxsdə - nizamnamə fondunun miqdarı, təsisçi tərəfindən verilmiş əmlakın miqdarı, direktorlar şurası (müşahidə şurası) yaradıldığı halda, onun hər bir üzvünün adı, soyadı, atasının adı və yaşayış yeri;".

13. 17-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Hüquqi şəxs, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialı dövlət qeydiyyatına alındıqdan və dövlət reyestrinə daxil edildikdən sonra, habelə dövlət qeydiyyatına alınmış həmin qurumlar və ya dövlət reyestrindəki yazılar ləğv edildikdə müvafiq icra hakimiyyəti orqanı bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 aprel 2017-ci il*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, II kitab, maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N 12, I kitab, maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560,

562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4, maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161; Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 190-cı maddənin "Qeyd" hissəsinə "200-2.1," rəqəmlərindən sonra "201-1.1," rəqəmləri, "200-2.3," rəqəmlərindən sonra isə "201-1.2," rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı redaksiyada 201-1-ci maddə əlavə edilsin:

"Maddə 201-1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi

201-1.1. Hüquqi şəxslərə aidiyyəti olan şəxslərlə əqdlərin bağlanması qaydalarının pozulması, yaxud belə əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatların təqdim edilməməsi xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə-

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

201-1.2. Eyni əməllər külli miqdarda ziyan vurmaqla və ya külli miqdarda gəlir əldə etməklə törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən beş mislinədək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2017-ci il*

## ”Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 7, maddə 586; 2007, N 1, maddə 1, N 8, maddə 756, N 11, maddələr 1078, 1081; 2008, N 3, maddə 155, N 6, maddə 481, N 8, maddələr 694, 710; 2009, N 6, maddə 399, N 11, maddə 878; 2010, N 3, maddə 171, N 4, maddə 273, N 11, maddə 944; 2011, N 2, maddələr 71, 72; 2012, N 11, maddə 1040; 2015, N 10, maddə 1089; 2016, N 6, maddə 984) 26.1-ci maddəsində "ədliyyə şöbələrində" sözləri "qurumlarında" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 aprel 2017-ci il*

### "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 8, maddə 890; 2016, N 3, maddə 428, N 11, maddə 1768, N 12, maddə 2016) aşağıdakı məzmunda 2.2-1-ci maddə əlavə edilsin:

"2.2-1. Bu Qanun cinayət təqibinin həyata keçirilməsi və ya məhkəmə icraatı çərçivəsində aparılan yoxlamalara şamil edilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 aprel 2017-ci il*

### Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N

11, maddələr 1270, 1288; 2016, N 2, (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039) 65.4-cü maddəsində "yalnız hadisənin və təqsirləndirilən şəxsin ona aidiyyəti olub-olmaması" sözləri "hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 may 2017-ci il*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 571-VQD və 580-VQD nömrəli qanunları) 82.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"82.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və iqtisadi mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 may 2017-ci il*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 570-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 58.8-ci maddə əlavə edilsin:

"58.8. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı inzibati mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 may 2017-ci il*